HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 12 (752) ■ 1 aprel 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

# Bakı Ağ Şəhər bulvarı - dünyanın ən iri müasir layihələrindən biri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Bakı Ağ Şəhər bulvarı Prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın «Qara şəhər» kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ Şəhər» layihəsini tamamlamaqla paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.



Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq. Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək.Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.

Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlanıb və müvafiq tapşırıqlarını verib.

# 31 MART – Azərbaycanlıların Soyqırımı günü

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı, Quba, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Erməni vandalları bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 97 il ötməsinə baxmayaraq, bu vəhşiliklər indi də xalqımızın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmişdir. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri etnik qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndlərin talan edilərək dağıdıldığını sübut edir.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda otuz mindən çox əhalini ermənilər xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart soyqırımı zamanı Bakının şəhər camaatından o dövrün pulu ilə 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdu. Mart qırğınları haqqında müstəqil tədqiqatçı Kulqe yazır: «Ermənilər müsəlman əhalini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər». Kulqe ermənilər tərəfindən üzü divara çevrilərək itlərə parçaladılan azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni cəlladlarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir.

1918-ci ildə ermənilər dinc əhaliyə qarşı görünməmiş amansızlıqlar etdikləri kimi, mədəniyyət və tarixi abidələrimizi də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi fotoşəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.

1918-ci ilin mart soyqırımı zamanı, Bakı ilə yanaşı, Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuş, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq - Cümə məscidi yandırılmışdı. Həmin günlərdə Şamaxı qəzasının 53 kəndində ermənilər 8 mindən çox azərbaycanlını qətlə yetirmişlər ki, onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur.

*Ümummilli lider Heydər Əliyevin 27 mart 1998-ci il tarixli fərmanı ilə respublikamızda 31 Mart - Azərbaycanlıların Soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir*

Əvvəlcədən qurulmuş plana görə, daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Həmin dövrdə S.Şaumyan Cənubi Qafqazda «Böyük Ermənistan» dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Onların vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində burada 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü öldürülmüşdür. Qeyd olunan hadisələr zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışlar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

1918-ci ilin yazından başlayaraq, Ermənistanda (Qərbi Azərbaycan) yaşayan azərbaycanlılar da erməni-bolşevik dəstələri tərəfindən soyqırımına məruz qalmışlar. Ermənilər «Böyük Ermənistan» yaratmaq üçün ilk növbədə Qərbi Azərbaycandakı müsəlman əhalini buradan çıxarmağa və bu məkrli planın reallaşmasına çalışırdılar. Təkcə 1918-ci ilin aprel ayının sonunda bu ərazidə dağıdılmış müsəlman kəndlərinin sayı 199-a çatırdı.

Ötən əsrdə dörd dəfə - 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən başlayan və bu gün də davam edən ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti özünü Dağlıq Qarabağ münaqişəsində münasibətdə aydın şəkildə göstərir və onu deməyə əsas verir ki, ermənilərin xalqımıza olan məkrli münasibəti dəyişməyib.

1918-ci ilin yazında erməni-bolşevik dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş vəhşiliklər haqda tarixi faktları kiçik bir yazıya yerləşdirmək mümkün deyil. Lakin sadalanan faktlar da yetərlidir ki, 1918-ci ilin mart ayında Bakı şəhərində və Azərbaycan qəzalarında daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyası cəhətdən soyqırımı kimi qiymətləndirilsin.

Azərbaycan xalqına qarşı törədilmiş bütün faciələrə siyasi-hüquqi qiymət verilməsi məsələsinə həssaslıqla yanaşan ümummilli lider Heydər Əliyevin 27 mart 1998-ci il tarixli fərmanı ilə respublikamızda 31 Mart - Azərbaycanlıların Soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir.

Hər bir millətin tarixində faciələr, qırğınlarla dolu səhifələr mövcuddur, lakin xalq o zaman gələcəyə inamla irəliləyir, o zaman qüdrətli, güclü olur ki, ulu öndər Heydər Əliyevin də qeyd etdiyi kimi, tarixi hadisələrə biganə yanaşmasın, faciələrdən nəticə çıxarmağı bacarsın.

**Anar ƏLİYEV**

rəsmi xronika

# Prezident İlham Əliyev yeni təyin olunmuş səfirləri qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev martın 28-də Venesuela Bolivar Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amenothep Zambrano Kontrerasın etimadnaməsini qəbul edib. Səfir Amenothep Zambrano Kontreras fəxri qarovul dəstəsinin qarşısından keçib. Amenothep Zambrano Kontreras etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirib. İqtisadi sahədə əməkdaşlığa toxunan Prezident İlham Əliyev bu sahədə əlaqələrin inkişaf etdirilməsi üçün investisiya və birgə fəaliyyətlə bağlı müxtəlif layihələrin önəmini vurğulayaraq bu istiqamətdə səfirin uğurlu iş aparacağına ümidvar olduğunu diqqətə çatdırıb.

Səfir Amenothep Zambrano Kontreras Venesuela Prezidenti Nikolas Maduronun beynəlxalq təşkilatlarda Azərbaycanın ölkəsinə verdiyi dəstəklə bağlı minnətdarlığını Prezident İlham Əliyevə çatdırıb. Səfir paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd edib. O, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən qeyri-neft sektorunda, mədəniyyət və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın önəmini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Seyşel Adaları Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dik Esparonun etimadnaməsini də qəbul edib. Səfir Seyşel Adaları Respublikasının Prezidenti Ceyms Aleks Mişelin salamlarını dövlətimizin başçısına çatdırıb. O, ölkəsinin Prezidentinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə nizama salınması ilə bağlı verdiyi dəstəyi də Prezident İlham Əliyevə xatırladıb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə nizama salınması ilə bağlı ədalətli mövqeyinə görə Seyşel Adaları Respublikasının Prezidentinə təşəkkürünü ifadə etdi. Beynəlxalq hüquq normalarının Ermənistan tərəfindən kobud şəkildə pozulması nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğala məruz qaldığını vurğulayan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin 20 ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də yerinə yetirilmədiyini təəssüflə qeyd edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu, enerji, balıqçılıq, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xorke Abarka del Karpionun, Uruqvay Şərq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Anibal Kabral Seqalerbanın, Həbəşistan Federativ Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ayalev Qobezie Vorknehin, Monteneqro Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Miliçin, Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Peter Priputenin etimadnamələrini də qəbul edib.

Görüşlərdə ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib, ticarət, sərmayə qoyuluşu, birgə layihələrin həyata keçirilməsi, digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi və bu istiqamətlərdə işlərin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

2 E-ticarətin vergidən yayınmasına qarşı optimal yollar axtarılır

3 Mikromaliyyədə innovativ inkişafa və strateji əməkdaşlığa üstünlük verilir

4 Sadələşdirilmiş vergi kiçik sahibkarlığın inkişafına stimul verir

5 «Yaşıl kart» sığorta sisteminin tətbiqinə hazırlıq gedir

# Tədris-Metodiki Şura ilk rübə yekun vurub

*Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın iclasında 2015-ci ilin ilk rübü ərzində görülmüş işlər müzakirə edilmişdir.*

Qeyd olunmuşdur ki, təlim proseslərinin normativ-hüquqi təminatı sahəsində «2015-ci ildə Vergilər Nazirliyində təhsilin inkişafına dair Tədbirlər Planı», Tədris Mərkəzinin Elmi Şurasının və struktur vahidlərinin əsasnamələri, eləcə də Mərkəzdə seçkili vəzifələrin tutulması qaydaları, 2015-ci il üçün illik tədris qrafiki, ilkin hazırlıq kurslarının və funksional sahə üzrə ixtisasartırma proqramlarının tədris-mövzu planları təsdiq edilmişdir.

Təlimin təşkili sahəsində 2 ixtisasartırma və 5 ilkin hazırlıq kursu təşkil edilmiş, 20 qısamüddətli təlim keçilmişdir. Bu müddət ərzində 816 dinləyici tədris prosesinə cəlb olunmuşdur. Rüb ərzində təlimlərə cəlb edilmiş dinləyicilərin sayı vergi orqanlarında çalışan işçilərin ümumi sayının 31,3%-i qədər, bir işçiyə düşən təlim günlərinin sayı isə 1,8 adam-gün olmuşdur.

Beynəlxalq təcrübənin öyrənilməsi sahəsində insan resurslarının və tədris sahəsinin inkişafı üzrə Tvinninq layihəsi çərçivəsində elektron təhsilin inkişafı və tətbiqinin təkmilləşdirilməsi istiqamətində İspaniya Vergi Administrasiyasının və İspaniyanın Maliyyə Araşdırmaları İnstitutunun nümayəndələri tərəfindən treninqlər keçirilmiş, görüşlər və müzakirələr aparılmış, qarşılıqlı səfərlər təşkil edilmişdir.

İclasda «Tədris Mərkəzində elmi-tədqiqat mövzularının seçilməsi, tədqiqatların aparılması prosesi və nəticələrin tətbiqi məsələlərinə dair Metodiki Tövsiyələr»in layihəsi müzakirə edilmiş, nazirliyin struktur vahidlərinin elmi tədqiqatlara tələbatlarının öyrənilməsi və bunun əsasında mövzuların seçilməsi, eləcə də əldə edilən nəticələrin tətbiqi mexanizminə dair təkliflər irəli sürülmüşdür.

# IOTA-nın İcraiyyə Şurasının iclası

Martın 24-dən 28-dək Rumıniyanın paytaxtı Buxarest şəhərində IOTA-nın İcraiyyə Şurasının 96-cı iclasında Şuraya üzv dövlətlərin (Niderland Krallığı, Avstriya, Azərbaycan Respublikası, Çexiya Respublikası, Finlandiya, Fransa, İrlandiya, Rumıniya) vergi administrasiyalarının nümayəndələri iştirak etmişlər.

İclasda IOTA-nın 2016-cı il üzrə iş planı, qurumun nizamnaməsinə yenidən baxılması, Vergi İnformasiya Platforması, IOTA-nın 19-cu Baş Assambleyası ilə bağlı məsələlər və 2013-2014-cü illər üzrə daxili audit hesabatları müzakirə edilmiş, ezamiyyələr üçün maliyyə şərtləri ilə bağlı təkliflərə baxılmışdır.

Tədbirdə Azərbaycanı vergilər nazirinin beynəlxalq münasibətlər, vergi ödəyicilərinə xidmət və tədris sahələri üzrə müşaviri Ələkbər Məmmədov təmsil etmişdir.

# Elektron ticarətin vergidən yayınmasına qarşı optimal yollar axtarılır

Ötən ay Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində Avropa Gənclər Mərkəzində «Vergidən yayınma hallarının müəyyənləşdirilməsində İT vasitələrindən və Forensic məlumat bazasından istifadə» mövzusunda seminar keçirilmişdir. Seminarda müxtəlif mövzularda təqdimatlar edilmiş, işçi qruplarda müzakirələr keçirilmişdir.

Qeyd edilmişdir ki, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı fərdi sahibkarlara və şirkətlərə minimal xərc çəkməklə elektron ticarət vasitəsilə öz mallarının (işlərin, xidmətlərin) tez və effektiv şəkildə təqdim edilməsinə səbəb olur. Bu isə elektron ticarətin yüksək templə inkişafına, xarici ölkələrin vergi inbatçılığı təcrübəsini və müxtəlif biznes modellərini tətbiq etməklə həmin şəxslərin vergidən yayınmasına şərait yaradır.

Bu amilləri nəzərə alaraq, müxtəlif xarici ölkələrin vergi orqanları xüsusi forensic qurğulardan, aparatlardan və proqram təminatlarından istifadə edərək əldə olunan zəruri məlumatları təhlil edir və vergidən yayınma barədə xüsusi arayışlar hazırlayaraq aidiyyəti qurumlara təqdim edirlər.

Seminar zamanı bu sahədə təcrübəsi olan ölkələrin mütəxəssisləri tərəfindən tədbir iştirakçılarına ətraflı məlumatlar verilmiş, xüsusi qurğuların, aparatların işləmə xüsusiyyətləri nümayiş olunmuş və müvafiq proqram təminatlarının tətbiqi izah edilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Təşkilat-analitik şöbəsinin rəisi Emin Bəylərov iştirak etmişdir.

# «Asan imza» Mərakeşdə təqdim olunub

*Mərakeş Krallığının paytaxtı Rabat şəhərində «Rəqəmsal dematerializasiya ekosistemi» mövzusunda konfrans keçirilmişdir. Məqsəd dövlət və özəl xidmətlərin elektronlaşdırılması istiqamətində rəqəmsal infrastrukturun tətbiq edilməsi sahəsində fikir mübadiləsinin aparılması və bu sahədə qabaqcıl təcrübələrin müzakirəsi üçün interaktiv dialoq imkanının təmin edilməsi olmuşdur.*

Tədbirdə krallığın dövlət orqanlarının nümayəndələri ilə yanaşı, «IBM», «Thales», «Gemalto» kimi nüfuzlu şirkətlərin nümayəndələri də iştirak etmişlər.

«B.EST Solutions» şirkətinin təsisçisi, Azərbaycan-Estoniya Ticarət Palatasının sədri xanım Yana Krimpe Azərbaycanda elektron idarəetmə modelinin tətbiqi sahəsində görülmüş işlərdən danışmış, həmçinin rəhbəri olduğu şirkətin ölkədə elektron və mobil hökumət konsepsiyalarının həyata keçirilməsi istiqamətində tələb olunan texnoloji sistem həllərinin işlənib hazırlanmasında qazandığı təcrübə barədə məlumat vermişdir. Onun «Asan imza» barədə təqdimatı auditoriyanın böyük marağına səbəb olmuşdur. Vurğulanmışdır ki, dünyada ilk dəfə olaraq Azərbaycanda mobil rəqəmsal imza texnologiyasının tətbiqi zamanı dövlət və özəl sektorun tərəfdaşlığı prinsipi nəzərə alınmışdır ki, bu da bu texnologiyanın olduqca yüksək templərlə tətbiqi və inkişafına zəmin yaradır və eyni zamanda, digər ölkələr üçün mühüm maraq kəsb edir.

# «ASAN robot» fəaliyyətə başlayıb

*Vətəndaşlar müxtəlif dövlət idarələrinə nəxsus xidmət sahələrinin bir çətir altına gətirilməsi prinsipi ilə fəaliyyət göstərən «ASAN xidmət» mərkəzlərində dövlət orqanları və özəl qurumlar tərəfindən göstərilən 150-dən çox xidmətdən yararlana bilirlər.*




Vətəndaşların maraqlarına cavab vermək və onların gözləntilərini qarşılamaq üçün «ASAN xidmət» yenilikçi təşəbbüsləri davam etdirir. Bu günlərdə 3 saylı «ASAN xidmət» mərkəzində daha bir layihənin - «ASAN robot»un təqdimat mərasimi keçirilib.

«ASAN xidmət»in İnformasiya təminatı şöbəsinin müdiri Anar Hüseynov «Mr. ASAN» adlandırılan robot haqqında məlumat verərək bildirib ki, gələcəkdə bu qurğu bütün «ASAN xidmət» mərkəzlərində əhaliyə xidmət edəcək: «Bərdə rayonunda «ASAN xidmət» mərkəzinin rəsmi açılış mərasimində növbəti innovativ layihə - «ASAN robot» ölkə başçısına təqdimat olundu. Bu robot vasitəsilə rəy sorğularının keçirilməsi, vətəndaşların müraciət və təkliflərinin qeydə alınması, həmçinin «ASAN xidmət»in Çağrı Mərkəzi ilə əlaqə saxlayıb suallarını, təklif və şikayətlərini ünvanlaması mümkün olacaq».

A.Hüseynov onu da vurğulayıb ki, robotun digər innovativliyi onun dövlət qurumları arasında ilk dəfə olaraq xidmət sahəsinə tətbiq olunmasıdır. Qeyd edilib ki, «ASAN xidmət»in coğrafiyası genişlənir və robotun köməyi ilə xidmətin əməkdaşları müxtəlif regionlarda sorğular keçirə biləcəklər.

**FƏXRİYYƏ**

# Vergilər Nazirliyinin beynəlxalq əlaqələri genişlənir

Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinə uyğun olaraq, Vergilər Nazirliyi xarici ölkələrin vergi orqanları ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda əlaqələr qurur. Ötən il Fransada Azərbaycanla İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) arasında «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyaya haqqında protokol imzalanmışdır. Protokolun imzalanması zamanı İƏİT baş katibi cənab Anxel Qurria Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Vergilər Nazirliyi həm də ölkəmizdə mötəbər tədbirlərin keçirilməsinin təşəbbüskarı və təşkilatçısı kimi çıxış edir. IOTA İcraiyyə Şurasının 92-ci iclasının Bakı şəhərində keçirilməsi buna misaldır. Bu iclasda təşkilatın fəaliyyəti ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdir. IOTA-nın Serbiya Respublikasının paytaxtı Belqrad şəhərində keçirilən 18-ci Baş Assambleyasında Vergilər Nazirliyi növbəti dəfə bir illik müddət üçün IOTA-nın İcraiyyə Şurasına üzv seçilmişdir.

Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi uğurla icra olunmaqdadır. Avropa Komissiyası ekspertlərinin rəylərinə əsasən, layihənin tətbiqi sayəsində üç əsas nəticə əldə olunacaq. Birincisi, insan resurslarının uzunmüddətli və çoxməqsədli inkişaf strategiyası və inkişaf planı hazırlanacaq. İkincisi, Vergilər Nazirliyinin insan resurslarının inkişafının və səmərəli idarə olunmasının təmin edilməsi üçün tənzimləyici rol oynayan ən müasir normativ qaydalar və metodoloji rəhbərliklər toplusu hazırlanacaq və tətbiq ediləcək. Üçüncüsü, işçi heyətin peşəkarlıq səviyyəsinin daim artırılmasını təmin etmək üçün Avropa İttifaqının təcrübəsinə uyğun və müasir informasiya texnologiyalarına əsaslanan dayanıqlı təhsil və çoxpilləli təlim sistemi tətbiq ediləcək.

Belə layihələr yalnız texniki yardımı ifadə etmir, həm də bu yardımı alan və yardım göstərən ölkələrin müvafiq qurumları arasında layihə başa çatdıqdan sonra da davam edən əməkdaşlığı nəzərdə tutur. Bu baxımdan, sözügedən layihə həm də Azərbaycanın vergi xidməti ilə Fransa və İspaniya vergi administrasiyaları arasında yeni əməkdaşlıqlar üçün imkanlar açır.

Beynəlxalq vergi siyasətinin həyata keçirilməsində çox mühüm məsələlərdən biri də vergilərə dair beynəlxalq müqavilələrdir. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması, bir tərəfdən, ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərir, digər tərəfdən vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanları arasında qarşılıqlı yardım göstərilməsi üçün əlavə imkanlar açır. Ötən il vergitutma sahəsində mühüm əhəmiyyət daşıyan beynəlxalq sazişlər imzalanmışdır. İkiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması istiqamətində İspaniya Krallığı, Səudiyyə Ərəbistan Krallığı, Vyetnam Sosialist Respublikası və Portuqaliya Respublikasının hökumətləri ilə sazişlər imzalanmış və Milli Məclis tərəfindən təsdiqlənmişdir.

Bundan başqa, «Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Niderland Krallığının Maliyyə Nazirliyi arasında vergi məsələləri üzrə məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu»nun və «Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Baş Dövlət Vergi Xidməti arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum»un layihələri üzrə müzakirələr yekunlaşdırılmış və onların imzalanmağa hazırlanması üzrə dövlətdaxili prosedurlar başa çatdırılmışdır.

Hazırda Vergilər Nazirliyi İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Anti-Korrupsiya Akademiyası, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, BMT və Dünya Bankının müvafiq qurumları, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və s. nüfuzlu təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində işlər aparır.

**Rəşad SADIQOV**

# Kredit faizlərinin azaldılması zəruridir




Mərkəzi Bank (MB) manatın məzənnəsinə dəyişikliklər nəticəsində vətəndaşların banklara olan kredit borclarının ödənişində yaranmış problemləri həll etmək üçün təkliflər paketi hazırlayıb. Təkliflərə əsasən, kommersiya banklarına dollarla kredit götürmüş vətəndaşların kreditlərinin qaytarılma müddətinin artırılması və faizlərin aşağı salınması tövsiyə edilir. MB İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, hazırkı şəraitdə dollarla kredit götürmüş vətəndaşların sosial vəziyyətini nəzərə almaq lazımdır və bu məqsədlə bank bazarında kredit siyasətinin yumşaldılmasına ehtiyac var. Kreditlərin məbləğindən asılı olaraq onların qaytarılma müddətinin 2 dəfəyədək uzadılması məqsədəuyğun hesab edilir. Bir il müddətinə kredit götürmüş vətəndaşların kreditləri qaytarma müddətinin 2 ilə, 2 il kredit borcu olanların müddətinin 4 ilə qədər uzadılması nəzərdə tutulur. Kommersiya bankları ilə kreditlərin faiz dərəcələrinin isə ən azı 4-5 faiz civarında endirilməsi barədə danışıqlar aparılır. MB banklara bu sahədə inzibati yollarla təsir etmək niyyətində olmadığını, amma kredit bazarında hansı əhəmiyyətli dəyişiklik gözlənilmir. Bu isə mövcud məzənnə rejimində dollar ekvivalenti ilə götürülmüş kreditlərin qaytarılmasında yarana biləcək çətinlikləri aradan qaldırmaq üçün təcili addımların atılmasını zəruri edir. MB-nin kreditlərin qaytarılma müddətinin uzadılması və faizlərin aşağı salınması barədə tövsiyələrini müsbət dəyərləndirmək olar».

İqtisadçı bildirib ki, kreditlərin faiz dərəcələrinin azaldılması məsələsi, əslində, manatın məzənnəsinin korreksiyasından əvvəl də aktual idi və dövlət başçısının tapşırığına uyğun olaraq 2015-ci ildə bu istiqamətdə aidiyyəti orqanlara müvafiq tədbirlər görmək barədə tapşırıqlar verilmişdi. Bu məqsədlə MB ötən ilin sonlarında banklar üçün uçot dərəcəsini aşağı salaraq 3,5 faiz müəyyənləşdirib. Bu addım kreditlər və tənzimləyicinin uçot dərəcəsi üzrə fərqin azaldılmasına, nəticədə faizlərin aşağı salınmasına zəmin yaradır. Uçot dərəcəsinin aşağı salınması kredit resurslarının ucuzlaşmasına və kredit təklifinin artmasına səbəb olur. Amma ötən müddətdə banklar kredit faizlərini aşağı salmaqla bağlı real addım atmayıblar: «Hazırda Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsi 22-27 faiz civarındadır. Bəzi banklar müştəri cəlb etmək naminə kreditlərin nominal deyil, effektiv faiz dərəcələrini elan edir, yüksək faizlə verdikləri kreditləri aşağı faizli kimi təqdim etməyə çalışırlar. Üstəlik də vətəndaşlardan, o cümlədən hüquqi və fiziki şəxslərdən kreditə görə komissiya, sığorta, nağdlaşdırma, girovun saxlanması və digər xərclərin tutulması faiz dərəcələrinin daha da yüksəlməsinə gətirib çıxarır. Ona

*Kreditlərin məbləğindən asılı olaraq onların qaytarılma müddətinin 2 dəfəyədək uzadılması məqsədəuyğun hesab edilir. Bir il müddətinə kredit götürmüş vətəndaşların kreditləri qaytarma müddətinin 2 ilə, 2 il kredit borcu olanların müddətinin 4 ilə qədər uzadılması nəzərdə tutulur*

dakı yüksək faizlərin olmasına da laqeyd qalmayacağını bildirir.

Bank sahəsi üzrə mütəxəssis Oqtay Məmmədovun sözlərinə görə, manatın devalvasiyasının hələ bir müddət davam edəcəyi və dolların kursunun üstün olacağı istisna deyil: «MB rəhbərliyi bəyan edib ki, 2015-ci ilin sonuna qədər məzənnə siyasətində hər hansı ciddi dəyişiklik olmayacaq. Proqnozlaşdırılan neft qiymətləri çərçivəsində dünya iqtisadiyyatında gedən proseslər çərçivəsində manatın məzənnəsində gələn ilin əvvəllərində də hər görə də bu məsələlərin təfərrüatlı şəkildə araşdırılmasına və ciddi addımlar atılmasına ehtiyac var».

Azərbaycan Banklar Assosiasiyasının rəhbəri Eldar İsmayılov bildirib ki, manatın məzənnəsinin dəyişməsi kredit bazarına təsir etdiyindən kommersiya banklarının adekvat tədbirlər görməsi zəruridir. Hazırkı şəraitdə kommersiya banklarının kreditlərə görə faiz dərəcələrini aşağı salmaq üçün kifayət qədər maliyyə resursları mövcuddur.

**Elbrus CƏFƏRLİ**

# Mikromaliyyədə innovativ inkişafa və strateji əməkdaşlığa üstünlük verilir



*Azərbaycanda mikromaliyyə sektoru xarici investorlar tərəfindən ölkə bazarına yönəldilən külli miqdarda kapital axını nəticəsində böyük sıçrayışla inkişaf edir. Müsahibimiz Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) icraçı direktoru Jalə Hacıyevadır.*

***- Jalə xanım, rəhbəri olduğunuz assosiasiyanın strateji meyarı nədən ibarətdir?***

- Qurum 2004-cü ildə yaradılmışdır və artıq bu gün 27 mikromaliyyə təşkilatını özündə birləşdirir.

Assosiasiyanın strateji istiqaməti orta və böyük həcmdə mikromaliyyə institutları üzərində cəmlənib və təşkilat öz üzvlərinin ehtiyaclarını qarşılayacaq xidmətləri göstərmək üçün ekspert fəaliyyəti göstərir. Biz innovativ məhsulları və xidmətləri inkişaf etdirmək, qabaqcıl təcrübələrə əsaslanaraq öz üzvlərimizə təlim keçmək, mikromaliyyə üzrə potensialı inkişaf etdirmək sahəsində ardıcıl iş aparırıq. Bundan əlavə, qeyri-mənfəət və kommersiya qurumları ilə strateji ortaqlığı inkişaf etdiririk.

***- 2015-ci il yanvarın 15-dən bank olmayan kredit təşkilatları (BOKT) yeni qaydalarla işləyir. Bu məsələ ilə bağlı nə deyə bilərsiniz?***

- Mərkəzi Bankın «Bank olmayan kredit təşkilatlarının prudensial tənzimlənməsinə dair» qərarında nəzərdə tutulan yeni qaydalarla bağlı diqqətinizə çatdırmaq istərdim ki, dəyişikliklərin əsas məqsədi əvvəlki qaydaların «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununa və yoxlamalar haqqında qanunvericiliyə uyğunlaşdırılmasıdır. Qaydalar yeni tərtibatda, nömrələnmədə və bəzi ifadələrin fərqli redaksiyasında hazırlanmış, yoxlamalarla bağlı normalar çıxarılmışdır. Lakin bank olmayan kredit təşkilatları üçün heç bir yeni tələb müəyyən edilməmişdir.

***- Bankların mikrokredit bazarına müraciət etməsi kredit təşkilatlarının fəaliyyətinə necə təsir göstərəcək?***

- Bu, müsbət dəyişiklikdir. Bazarda rəqabəti artırır və nəticədə maliyyə xidmətlərinin keyfiyyətinin artırılmasına, kredit faizinin aşağı salınmasına qətirib çıxarır. Buna misal olaraq deyə bilərik ki, 2012-2014-cü illərdə kredit faizi 7-8 % aşağı düşmüşdür. Bankların mikrokredit bazarına müraciəti ilk dəfə 2006-ci ilin əvvəllərinə təsadüf edir. Bu istiqamətə onları həvəsləndirən beynəlxalq inkişaf bankları (BİB) olmuşdur. BİB-lər kredit və məcmu kapitalla yanaşı, müxtəlif formada texniki dəstək də təklif etmişdilər və bu gün də dəstək davam etdirilir. İndi 12 bankın məcmu kapitalının təxminən 25%-i xarici kapitaldır və səhmdarlar bankın inkişaf strategiyasına xüsusi diqqət yetirirlər, yeniliyi və müştəri yönümlü siyasət və strategiyaların qəbul olunmasını və icrasını daim bankların qarşısına məqsəd kimi qoyurlar.

Bu gün Mikromaliyyə Assosiasiyasının üzvlərinin 10-dan çoxu banklardır və onların əsas marağı beynəlxalq və yerli mikrokredit bazarındakı yeniliklərdən faydalanmaq, müxtəlif texniki yardım layihələrində iştirak etməklə işçi heyətin potensialını gücləndirmək, xarici investorlardan kapital cəlb etmək, mikrokredit bazarına dair aylıq statistik hesabatlardan istifadə etmək, aparıcı BOKT-lar ilə əməkdaşlıq etmək və təcrübələrindən yararlanmaqdır.

***- Mikrokreditlərin faizləri digər kreditlərdən daha yüksəkdir. Faizlərin aşağı salınması ilə bağlı AMFA hansı işlər görür?***

- Beynəlxalq təcrübə göstərir ki, faizlərin inzibati yolla tənzimlənməsi arzu olunan nəticəni vermir. Misal üçün, bu gün Füzuli və Tərtər rayonlarında məhdud sayda BOKT fəaliyyət göstərir. Burada filial saxlamaqla və fəaliyyət göstərməklə bağlı xərclər digər rayonlardan fərqlidir və bu səbəbdən də faiz dərəcələri daha yüksəkdir. Ancaq yerli kiçik sahibkarlar faiz dərəcələrindən şikayətlənmirlər. Nəyə görə? Birincisi, verilən kreditlərin məbləğində sahibkarın aylıq gəliri 30%-dən artıq olmur və bu səbəbdən geriyə kreditin əsas və faiz borcları rahat şəkildə biznesdə olan pul vəsaitlərin dövriyyəsinə uyğun olaraq həyata keçirilir. İkincisi, nümunəvi və nizam-intizamli olmayan sahibkar növbəti dəfə kredit ala bilmir. Həmin bölgədə fəaliyyət göstərən maliyyə qurumlarının sayı məhdud olduğu üçün sahibkarlar dayanıqlı əməkdaşlıq qurmaqda maraqlıdırlar.

Əgər faizlər inzibati yolla aşağı salınsa, o zaman BOKT-lər Füzuli, Tərtər və digər az rentabelli rayonlarda filiallarının fəaliyyətlərini dayandıracaqlar və kredit portfelini şəhərə yaxın olan rayonlara yerləşdirəcəklər. Bu halda kiçik fermerlərin maliyyə xidmətlərindən istifadə imkanı kəsiləcək. Heç bir bankı, yaxud BOKT-ni məcbur etmək olmaz ki, filan rayonda aşağı faizlə kredit versin.

Assosiasiyamız faizlərin aşağı salınması yollarını maliyyə xidmətlərinin keyfiyyətini, şəffaflığını, eləcə də müştəri xidmətinin keyfiyyətini artırmaqda, müştəri şikayətlərinə baxış mexanizminin təkmilləşdirilməsində, mütəmadi olaraq müştəri məmnunluğu istiqamətində sorğuların keçirilməsində, nəticələrin təhlilinə əsasən müvafiq dəyişikliklərin tətbiqində, bazarda yerli və xarici investorların, müştəriyönümlü müxtəlif texniki layihələrin icrasında, maliyyə qurumlarının diqqətini cəlb etməkdə görür.

Monitorinqlər göstərir ki, çox zaman müştərilər maliyyə qurumları arasında seçim edərkən qiymətə yox, təklif olunan xidmət və davranışa üstünlük verirlər, xidmətindən məmnun olduqları və bizneslərini ayağa qaldırmağa dəstək olan maliyyə qurumuna xüsusi hörmət bəsləyirlər. Bir çox kiçik sahibkarlar biznesə yeni başlayarkən bankların onları riskli müştəri hesab edərək kredit ayırmamasından şikayətlənirlər. Maraqlısı budur ki, BOKT-dən bir neçə il kredit aldıqdan sonra özünü doğruldan müştəri sonradan banka deyil, partnyorluq etdiyi maliyyə qurumuna üstünlük verir.

Sonda onu da qeyd etməyi vacib sayıram ki, assosiasiyamız mikromaliyyə sahəsində Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilməsi mühüm hesab olunan dəyişikliklərə dair sorğu aparmışdır. Sorğunun nəticəsi ümumiləşdirilərək təkliflər hazırlanmış, Vergilər Nazirliyinə və digər aidiyyəti qurumlara təqdim olunmuşdur.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# İnformasiya şəbəkələri təkmilləşdirilir

*Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, biznes fəaliyyətinin müasir tələblərə uyğun qurulması, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər görülməkdədir.*

Bu günlərdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Aztelekom» İstehsalat Birliyində «Qlobal monitorinq sistemi» və «585» daşınan şəhər telefon xidməti ilə bağlı təqdimat mərasimi keçirilib. Tədbirdə çevik müdaxilə monitorinq kompleksi olan «Qlobal monitorinq sistemi»nin Çağrı Mərkəzi və qeydiyyat sistemi, məlumat və telemarketinq stolu, şəbəkənin monitorinqi, üçpilləli texniki dəstək, təhlil masası, yerli texniki dəstək kimi alt sistemlərdən ibarət olduğu qeyd olunub. Sistemə daxil olan müraciətlərin qeydə alınmasını və baş verən qəzaların aradan qaldırılmasını sistemləşdirmək məqsədi ilə xüsusi alqoritm-qəzaların aradan qaldırılması üzrə texnoloji xəritə hazırlanıb ki, bu da sistemə ayrı-ayrı istiqamətlərdən daxil olan informasiyaların təhlilini aparmağa imkan verir.

«Aztelekom»un mətbuat xidmətinin rəhbəri Elmar Hüseynov bildirib ki, sistemin özəlliklərindən biri elektron müştəri kartotekasının yaradılmasıdır. Bütün məlumatlar avtomatik olaraq elektron kartotekaya ötürülür. Sistem yalnız «Aztelekom» İB-nin müştərilərinə deyil, həm də özəl provayderlərin müştərilərinə xidmət edir. Bu gün özəl provayderlərin müştərilərinin 35%-i sistemə qoşulur. «585» daşınan şəhər telefon xidmətinə gəlincə, bu yenilik paytaxtın telefon şəbəkəsinin nömrələnmə sisteminə daxil olan boş prefikslərdən istifadə etməklə Bakı nömrələrinin rayonlara daşınması və abunəçilərə paylanılmasına xidmət edir. Bildirilib ki, gəlirlərin artırılması məqsədilə şəbəkədə hər zaman yeni xidmət növlərinin tətbiqi ilə bağlı işlər görülür. «585» daşınan şəhər telefon xidmətinin tam istifadəyə verilməsi üçün «Aztelekom» İB şəbəkəsində NGN/İMS texnologiyası ilə yeni stansiyanın qurulması planlaşdırılır: «Bu stansiya Bakı telefon şəbəkəsi, bütün rayon Toll stansiyaları, mobil və digər operatorların şəbəkələri ilə qarşılıqlı əlaqədə işləyəcək.Yeni qurulacaq stansiya da RYTN tərəfindən ayrılmış Bakı şəhər telefon şəbəkəsinin nömrələnmə sisteminə daxil olan boş prefikslərdən istifadə olunması nəzərdə tutulub. Stansiya fəaliyyətə başlaıqdan sonar hər bir istifadəçi ayda 15 manat ödəməklə ay ərzində şəbəkə daxilində pulsuz danışmaq imkanı əldə edəcəkdir. Bu stansiya SİP nömrələrin şəbəkənin istənilən yerində müştərilərə təqdim edilməsini, müxtəlif növ mövcud və yeni xidmətlərin istifadəçilərə keyfiyyətli çatdırılmasını da asanlaşacaq. İMS texnologiyası əsasında yeni stansiyanın və nəqliyyat - İP/MPLS şəbəkəsinin qurulması gələcəkdə şəbəkənin vahid mərkəzdən idarə edilməsini və ona nəzarət olunmasını təmin etməklə bərabər, istismar xərclərinin xeyli dərəcədə azalmasına da şərait yaradacaq».

**F.İKRAMQIZI**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# İdeal vergi sistemi

Vergi sistemi dedikdə, qanunvericilik aktları ilə müəyyən edilən, dövlət xəzinəsinə daxil olan vergi, yığım, rüsum və digər icbari ödəniş növlərinin məcmusu nəzərdə tutulur. Dünyanın hər bir ölkəsinin özünəməxsus vergi sistemi vardır. Bununla belə, onların hər birinin ümumi xarakterik əlamətləri də mövcuddur. Bu əlamətlərə, əsasən, tətbiq olunan vergi növlərinin qanunvericiliklə müəyyənləşdirilməsi, vergitutmanın prinsipləri, onun forma və metodları, vergi inzibatçılığı sistemi, vergi nəzarətinin formaları, vergi münasibəti iştirakçılarının hüquq və vəzifələri aid edilir.

Ümumiyyətlə, vergi sistemi terminindən ayrıca götürülmüş ölkəyə və ya onun hər hansı iqtisadi-inzibati subyektinə münasibətdə istifadə edilir. İlk vergi sistemlərinin yaranma tarixi isə dünyanın müxtəlif dövlətlərinin formalaşdığı dövrlərə təsadüf edir. Həmin dövrlərdə dövlətlər öz ərazilərində yaşayan əhalinin gəlir və əmlaklarından tutulan vergilər tətbiq etməklə dövlət xəzinəsinin gəlir mənbələrini müəyyən etmişlər. İlkin olaraq vergilərdən əldə edilən gəlir hesabına ordunun saxlanmasına, sərhədlərin möhkəmləndirilməsinə və məbədlərin tikintisinə tələb olunan vəsaitlər formalaşdırılırdı. Sonradan vergi gəlirlərindən digər məqsədlər üçün də istifadə olunmağa başlanıldı. Məsələn, Roma imperiyasında yığılan vergilərdən yolların tikintisi, su xətlərinin çəkilməsi, bayramların keçirilməsi, əhalinin yoxsul təbəqəsinə ərzaq və pulların paylanması və digər ictimai məqsədlər üçün istifadə olunurdu. Zaman keçdikcə vergilərin tətbiqinin özünəməxsus prinsipləri də müəyyən olunmuşdur.

*Dövlətin əsas vəzifələrindən biri optimal vergi dərəcələri müəyyən edərək dövlət xəzinəsinə yığılan vəsaitlərlə onların xərclənməsi arasında optimal balans yaratmaqdır*

XVIII əsrdə yaşamış məşhur şotland iqtisadçısı Adam Smit tərəfindən irəli sürülmüş vergi sisteminin qurulmasının 4 əsas prinsipi bu günə qədər öz aktuallığını qoruyur. Bunlara vergitutmanın ümumi və vətəndaşlar arasında gəlirlərə mütənasib olaraq bölüşdürülməsini təmin edən ədalətlilik prinsipi; verginin hansı məbləğdə və nə vaxt ödənilməsi barədə qabaqcadan vergi ödəyicisinin məlumatlı olmasını müəyyənləşdirən aydınlıq prinsipi; verginin ödəyicilər üçün əlverişli vaxtda və şəraitdə tutulmasını təmin edən əlverişlilik prinsipi; vergilərin tutulmasına çəkilən inzibatçılıq xərclərinin minimallaşdırılması, vergi sisteminin optimallaşdırılmasına yönəldilmiş iqtisadi əsaslandırma prinsipi aiddir.

Vergi sistemi vasitəsilə, əsasən, dövlət büdcəsinin gəlirlərinin təmin olunmasına yönəldilən fiskal, makroiqtisadi prosesləri, tələb və təklifi, məşğulluğun inkişaf templərini, milli gəlirlərin, fiziki və hüquqi şəxslərin gəlirlərinin yenidən bölüşdürülməsini tənzimləyən, sosial və vergi münasibətlərinin bərpasını təmin edən funksiyalar həyata keçirilir.

Vergilər istənilən ölkənin iqtisadi varlığının əsasını təşkil edir, dövlətin infrastrukturunun inkişafına, onun təhlükəsizliyinin təmin edilməsinə, vətəndaşların sosial müdafiəsinə və s. vəzifələrin yerinə yetirilməsinə xidmət edir. Lakin bu faktı da qeyd etmək lazımdır ki, vergilərin ifrat dərəcədə yığılması cəmiyyətin iqtisadi inkişafına maneə yaradır. Buna görə də dövlətin əsas vəzifələrindən biri optimal vergi dərəcələri müəyyən edərək dövlət xəzinəsinə yığılan vəsaitlərlə onların xərclənməsi arasında optimal balans yaratmaqdır. Bu isə öz növbəsində ölkədə biznesin inkişafına stimul yaradan əsas amillərdən biri hesab edilir.

Beləliklə, ideal vergi sistemi dedikdə, ideal balansın yaradılmasına xidmət edən vergi sistemi başa düşülür. Çünki real həyatda hər bir şəxs vergi dərəcələri nisbətən aşağı səviyyədə olan, zəruri hüquqi müdafiə təmin edilən, həyat və iş üçün təhlükəsizlik şəraiti yaradılan ölkədə biznes qurmağa cəhd edir. Bu zaman nəzərə alınmalıdır ki, həmin şərtlər zəruri səviyyədə olsa belə, biznesin həyata keçirilməsinə maneçilik törədən vergilərin tətbiq edildiyi ölkə daha az cəlbedici olur.

Dünya ölkələrinin vergi sistemləri üzrə aparılmış təhlillər göstərir ki, dövlətin yığdığı vergi və icbari ödənişlərə münasibətdə ideal balansın yaradılması üçün Birləşmiş Ərəb Əmirliyində daha əlverişli imkanlar mövcuddur. Bu ölkə dünyanın mövcud vergi sistemlərindən ən yaxşısını təklif edir. Biznes fəaliyyəti üçün onun əlverişli xüsusiyyətləri sahibkarlıq fəaliyyətinin vergilərdən azad olunması (bunun əvəzinə lisenziyaların verilməsinə görə ödənişlər, qeydiyyatla bağlı rüsumlar tətbiq olunur), ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqavilələrin kifayət qədər olması, yüz faiz xarici investisiyalı şirkətlərin qeydiyyatı və fəaliyyəti üçün aydın və sadə qanunvericilik bazasının yaradılması, biznesin həyata keçirilməsi üçün zəruri olan bütün şəraitin, o cümlədən bina, loqistika, infrastruktur və bankların olması ilə səciyyələndirilir. Birləşmiş Ərəb Əmirliyinin vergi sistemi həm də bu ölkədə yaşayan fiziki şəxslərə müəyyən imtiyazların verilməsini nəzərdə tutur. Məsələn, bu ölkənin rezidenti olan fiziki şəxslərin əsas gəlirləri vergilərdən azaddır. Verilmiş bu imtiyazlar dövlətin sürətli iqtisadi inkişafına və biznesin genişlənməsinə heç bir maneə yaratmır. Beləliklə, Birləşmiş Ərəb Əmirliyinin vergi sistemini biznesin həyata keçirilməsi və inkişafı üçün əlverişli şərait yaradan ideal vergi sisteminə aid etmək olar.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Dividenddən vergi

**Dividend nədir və ondan vergi hansı qaydada tutulur?**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Məcəllə) 13.2.15-ci maddəsinə əsasən, dividend hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Hüquqi şəxsin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir, həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır.

Məcəllənin 122-ci maddəsinə əsasən, rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur. Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlər üzrə mənfəətin bölüşdürülməsi, habelə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallarda hüquqi şəxsin tam mülkiyyətində olan törəmə müəssisələrin xalis mənfəətinin həmin hüquqi şəxsin mərkəzləşdirilmiş fondunda cəmləşdirilməsi üzrə köçürmələr vergiyə cəlb olunmur.

Məcəllənin 123-cü maddəsinə əsasən, rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

O da qeyd olunmalıdır ki, hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər ödəmə mənbəyində verginin tutulması və büdcəyə köçürülməsi üçün cavabdehdirlər. Vergi məbləği tutulmursa və ya tutulmuş vergi büdcəyə köçürülmürsə, köçürülməmiş verginin məbləğini, həmçinin müvafiq faizləri və sanksiyaları şəxslərə dividend verən rezident hüquqi şəxslər büdcəyə ödəməyə borcludurlar.

Qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan dividenddən əldə etdiyi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan, Məcəllənin 122-ci maddəsinə uyğun olaraq, vergi tutulur.

# Ünvanlı sosial yardımların təyinatında yenilik

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. Təkcə son bir ildə ölkə başçısı tərəfindən bu sahədə 10-dan artıq fərman və sərəncam imzalanmış, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının əhəmiyyəti şəkildə artırılması təmin edilmişdir. 2013-cü ilin sonlarından ünvanlı sosial yardımların təyinatında şəffaflığın və bu sahəyə ictimai nəzarətin təmin olunması üçün ünvanlı yardım alan ailələrin siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında yerləşdirilməsi yardım alanların sayının azalmasına səbəb olmuşdur.

***Ünvanlı sosial yardım almaq üçün qaydalar asanlaşır***

Ünvanlı sosial yardım almaq hüququna o aztəminatlı ailələr malikdirlər ki, onların orta aylıq gəliri özlərindən asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağıdır. Ünvanlı sosial yardımların təyinatı prosesində məmur-vətəndaş təmaslarının minimuma endirilməsi üçün bu sahənin tam avtomatlaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Ölkə başçısının 23 fevral tarixli fərmanına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılır. Sistemin işə salınması üçün ƏƏSMN beş ay müddətində vətəndaşlara fərdi kommunikasiya vasitələrindən, habelə bu məqsədlər üçün xüsusi olaraq quraşdırılmış infokökşklərdən istifadə etməklə ünvanlı dövlət sosial yardımı ilə bağlı elektron formada müraciət etmək imkanı yaradacaq. Zəruri texniki imkanlara, xüsusi proqram təminatına malik infokökşklər bütün rayon və şəhərlərin poçt şöbələrində quraşdırılaraq «Elektron hökumət» portalına qoşulacaq. Vətəndaşlar yerli poçt şöbələri tərəfindən onlara pulsuz verilən və yalnız bu elektron xidmət növü üçün istifadə oluna bilən elektron imzalar vasitəsilə infokökşklərdən ünvanlı dövlət sosial yardımı almaq üçün elektron qaydada müraciət edə biləcəklər. Vətəndaşların infokökşklərdən etdikləri elektron müraciətlər VEMTAS vasitəsilə qəbul ediləcək və ünvanlı dövlət sosial yardımı almaq hüququna baxılması üçün lazımi arayış və məlumatlar tələb olunmayacaq, müvafiq dövlət qurumlarından elektron formada əldə ediləcək. Vətəndaşların ünvanlı dövlət sosial yardımı üçün elektron qaydada müraciətləri qəbul olunduqdan sonra rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri müraciət edənlərin maddi-məişət şəraitinin müayinəsini aparacaqlar. Əldə olunan bütün məlumatlar ümumiləşdirildikdən sonra müraciət edən ailəyə yardım təyin olunub-olunmaması barədə qərar qəbul ediləcək və bu barədə məlumat vətəndaşa elektron qaydada çatdırılacaq. Bu məlumat fərdi kommunikasiya vasitələri ilə elektron ismarıc formasında çatdırılacaq, fərdi kommunikasiya vasitəsi olmayan vətəndaşlar isə məlumatla infokökşklərdə tanış ola biləcək.

***Sosial yardımlar iki il müddətə təyin olunacaq***

Ünvanlı dövlət sosial yardımların verilməsi sahəsində həyata keçirilən növbəti yenilik «Ünvanlı dövlət sosial yardımı haqqında» Qanunda edilən dəyişikliklə bağlı yardımların iki il müddətinə təyin olunmasıdır. Əvvəllər sosial yardımlar onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən bir il müddətinə təyin olunurdu.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Son iki ayda ümumi sənaye istehsalının **88,1%-i** malların (əmtəələrin), **11,9%-i** isə sənaye xarakterli xidmətlərin payına düşmüş, məhsulun **72,8%-i** özəl bölmədə istehsal olunmuşdur.
- Sahibkarlığa Kömək Milli Fondundan verilən məlumata görə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 1000-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə **219,6 mln. manat** güzəştli kredit verilib.
- Aprelin 1-də Bakı Fond Birjasında Azərbaycan İpoteka Fondunun **5 mln. manat** həcmində istiqrazı hərraca çıxarılacaq.

# Sadələşdirilmiş vergi kiçik sahibkarlığın inkişafına stimul verir

***Artıq bu ilin birinci rübü başa çatıb və sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər öz hesabatlarını qeydiyyatda olduqları vergi orqanına təqdim etməlidirlər. Vergi Məcəlləsinin 221.3-cü maddəsinə əsasən, sadələşdirilmiş vergi ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə köçürür. Qeyd edək ki, bu vergi növü üzrə dövlət qeydiyyatında olan vergi ödəyicilərinin həm sayı, həm də ödədikləri verginin həcmi ildən-ilə artır. 2010-cu ildə sadələşdirilmiş vergi üzrə dövlət büdcəsinə 65 mln. 525 min manat vergi ödənildiyi halda, ötən il bu göstərici 153 mln. 396,7 min manat təşkil etmişdir.***

Azərbaycanda sadələşdirilmiş verginin tətbiqi kiçik sahibkarlıq subyektlərinə dövlət tərəfindən göstərilən dəstəkdən irəli gəlir. Kiçik sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi əhalinin məşğulluğunun artırılmasına imkan yaradır və cəmiyyətdə sosial vəziyyətin yaxşılaşmasına müsbət təsir göstərir. Belə sahibkarlıq subyektləri üçün sadələşdirilmiş verginin tətbiqi uçot aparılmasına çəkilən xərclərin azaldılmasını təmin edir və fəaliyyətin səmərəliliyinin artırılmasına şərait yaradır. Kiçik sahibkarlıq subyektlərinin iri təsərrüfat subyektləri ilə müqayisədə üstünlüyü ondadır ki, onlar bazarda gedən müxtəlif konyuktur dəyişikliklərinə daha tez uyğunlaşır və tez bir zamanda öz fəaliyyətlərini bazarın tələblərinə uyğun olaraq yenidən təşkil etmək imkanına malik olurlar.

Şərti verginin tətbiq olunması isə kiçik sahibkarlıq subyekti üçün əvvəlcədən fiksə olunmuş vergi məbləğinin müəyyən edilməsini nəzərdə tutur. Sadələşdirilmiş vergi kimi şərti vergi də bir neçə ənənəvi verginin əvəzinə ödənilir. İnkişaf etmiş ölkələrdə sadələşdirilmiş verginin tətbiqi daha geniş yayılmışdır. Şərti vergi isə adətən müəyyən fəaliyyət növü ilə məşğul olan vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanması riskləri yüksək olduğu halda tətbiq olunur.




Azərbaycanda sadələşdirilmiş verginin tətbiqi ilə bağlı məsələləri tənzimləyən normalar Vergi Məcəlləsində daha geniş əks etdirilmişdir. Vergi Məcəlləsindən əvvəlki dövrlərdə isə pərakəndə ticarət, ictimai iaşə, avtomobil nəqliyyatı ilə daşımalar və s. bu kimi sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri üçün sadələşdirilmiş verginin analoqu kimi «minimum aylıq vergi» adlanan vergi növü tətbiq olunurdu. Vergi Məcəlləsi qüvvəyə mindikdən sonra sadələşdirilmiş verginin tətbiqi və onun təkmilləşdirilməsi daha da aktuallaşdı. Vergi Məcəlləsinə əsasən, sadələşdirilmiş vergi ödəyiciləri iki qrupa bölünmüşdür: hasilatdan vergini hesablayıb ödəyənlər və fəaliyyətin nəticəsindən, dövriyyədən asılı olmayaraq yalnız həyata keçirdikləri fəaliyyət növünə görə vergi ödəyən təsərrüfat subyektləri (sərnişin və yük daşımalarını, mənzil tikintisini həyata keçirən şəxslər).

Vergi Məcəlləsində sadələşdirilmiş vergini hasilatdan ödəməli olan vergi ödəyiciləri üçün ardıcıl 12 aylıq dövrün vergi tutulan əməliyyatlarının həcmi üzrə məhdudiyyət nəzərdə tutulmuşdur. Qoyulmuş məhdudiyyət 2013-cü ilədək hüquqi və fiziki şəxslər üçün müxtəlif həcmlərdə müəyyən edilirdi. Bu isə sadələşdirilmiş vergini tətbiq etmək hüququnun müəyyən olunması məsələsində müxtəlif hüquqi statusdan olan vergi ödəyiciləri arasında diskriminasiya yaradırdı. Vergi Məcəlləsinin 218.1-ci maddəsində edilmiş dəyişikliklərə əsasən, 2013-cü il yanvarın 1-dən ardıcıl 12 aylıq dövr ərzindəki vergitutulan əməliyyatların həcmi həm hüquqi, həm də fiziki şəxslər üçün 120 min manat müəyyən edilmişdir. Vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və sadələşdirilmiş verginin tətbiqi zamanı meydana çıxan mübahisəli məsələlərin aradan qaldırılması məqsədilə icarə və royalti ilə bağlı Vergi Məcəlləsinə yeni - 221.7-ci maddə əlavə edilmişdir. Bu maddə ilə müəyyən olunmuşdur ki, icarədən və ya royaltidən gəlir əldə edən vergi ödəyicisinin digər fəaliyyəti olduqda həmin fəaliyyətdən əldə etdiyi gəlirlərə sadələşdirilmiş vergi tətbiq edilə bilər. Bundan əvvəl isə əmlakının icarəyə verilməsindən və ya royaltidən gəlir əldə edən vergi ödəyicisinə, bu fəaliyyətlə yanaşı, digər fəaliyyəti üzrə sadələşdirilmiş vergi tətbiq edilə bilməzdi.

Onu da qeyd edək ki, Azərbaycan hökuməti regionların inkişafını sürətləndirmək, rayonlarda sahibkarlıq subyektlərini stimullaşdırmaq, iş yerlərinin sayını artırmaq və s. kimi sosial məsələləri nəzərə alaraq, bölgələrdə sadələşdirilmiş vergini 2 faiz dərəcə ilə müəyyənləşdirmişdir. Paytaxtda isə bu dərəcə 4 faizdir. Azərbaycan Respublikasının şəhər və rayonlarında, Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış, lakin Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş vergi ödəyiciləri vergini Bakı şəhəri üzrə müəyyən olunmuş vergi dərəcəsi ilə ödəyirlər.

**Rəşad SADIQOV**

# Səyahət sığortası - qayğısız istirahətə təminat

*Son dövrlərdə xarici ölkələrə səfərlə bağlı tez-tez rast gəldiyimiz ifadələrdən biri səyahət sığortasıdır. Viza üçün müraciət edərkən, uçuş bileti alarkən, xarici ölkələrdə istirahət planlaşdırarkən üz tutduğumuz turizm şirkətlərində bu sığorta məhsulunu mütləq bizə təklif edirlər.*

***Səyahət sığortası nədir?***

Səyahət sığortası şəxsi sığorta növlərindən biri olsa da əmlak sığortasının, o cümlədən məsuliyyət sığortasının təminatlarını da əhatə edir. Səyahət sığortası xarici ölkədə səfərdə olan sığortalını bir sıra mühüm risklərdən və təhlükələrdən, o cümlədən xərclərdən qoruyur. Sığorta üzrə ekspert Xəyal Məmmədxanlının sözlərinə görə, dünyada səyahət sığortasının standart bir qəlibi olmasa da, Azərbaycanda təklif edilən təminatlar, demək olar ki, əksər şirkətlərdə standart formadadır: «Sığorta şirkətlərimiz, əsasən, Azərbaycan Respublikası sərhədlərindən kənara çıxan vətəndaşların bədbəxt hadisələr və qəfil xəstəliklər zamanı tibbi xərclərinin sığortalanması, fərdi qəza, xaricə səfər zamanı baqajın itmə və ya məhv olma hallarından sığorta, səfərin ləğv edilməsinin və ya tarixinin dəyişdirilməsi nəticəsində ortaya çıxan və hava nəqliyyatı vasitəsinin reysinin ləngiməsi zamanı yaranan xərclərin sığortası, xarici pasportun, eləcə də nəqliyyat sənədlərinin itirilməsi kimi risklərə təminat verirlər».

Sığortalının arzusu ilə təminat verilən risklərin əhatə dairəsini genişləndirmək də mümkündür. Səyahət sığortasını əldə edərkən təklif edilən sığorta məbləğləri bir çox hallarda sığortalının seçimi ilə müəyyən olunur. Lakin bir sıra ölkələrə, o cümlədən «Şengen» ərazisinə, ABŞ və Kanadaya səyahət edərkən sığorta məbləğlərinə dair minimum həddlər tələb edilir: «Səyahət sığortası səfər zamanı ən azı pasport qədər önəmli bir sənəddir. Çünki bəzən qarşılaşdığınız arzuolunmaz hallar istirahətinizi asanlıqla «burnunuzdan gətirə» bilər. Bir çox Avropa ölkələrində sığortanız yoxdursa, adi qripə əlaqədar həkimə müraciət zamanı üzərində 3 rəqəmli qiymətlər olan fakturaya rast gələcəksiniz. Bəs nəticə daha ağır olarsa? Sığortanız yoxdursa, bütün nəqliyyat, tibbi yardım, əməliyyat, yemək, xəstəxana, dərman xərclərini özünüz çəkəcəksiniz.

Səyahət sığortası zamanı tez-tez rast gəlinən problemlərdən biri baqajın, pasport və digər zəruri sənədlərin itməsidir. Belə olan halda itmiş baqaja görə sığorta təminatı ala, pasport və zəruri sənədlərinizin bərpası üçün gərəkli olan xərclərin əvəzini sığorta şirkətindən tələb edə bilərsiniz».

***Xarici ölkədə bədbəxt hadisə baş verdikdə sığorta xidmətlərindən necə istifadə olunur?***

X.Məmmədxanlının sözlərinə görə, bu məsələni sığorta şirkətləri iki yolla tənzimləyirlər: «Birinci yol peşəkar sığorta şirkətlərinin istifadə etdikləri «Assistant» xidmətidir ki, bu halda sığorta şirkəti daha öncədən müqavilə bağladığı yardım şirkətinə sığortalılarının siyahısını təqdim edir. Yardım şirkətlərinin qlobal telefon nömrələri sığorta şəhadətnamələrində göstərilir. Həmin nömrəyə sığortalılardan müraciət daxil olan zaman, hansı ölkədə olmasından asılı olmayaraq, sığortalıya bütün zəruri yardımın göstərilməsi təmin olunur. İkinci alternativ yol isə daha az peşəkar şirkətlərin istifadə etdiyi «faktura əsasında ödəniş»dir. Bu zaman sığortalı hadisə ilə əlaqədar xərclərin əvəzini özü ödəyir, bütün ödənişlərin qəbzini səfərdən döndükdən sonra sığorta şirkətinə təhvil verir və ödənişlərin əvəzini alır».

***Səyahət sığortasının qiyməti nə qədərdir?***

«Lider Travel»in turizm agentliyinin əməkdaşının bildirdiyinə görə, səyahət etdiyiniz ölkədən asılı olaraq, bu sığorta növünə görə ödəyəcəyiniz sığorta haqqı səfər günlərinin sayına görə müəyyən olunur və təxminən bir gün üçün 1-2 avro arasında dəyişir: «Bu sığorta ilə bağlı müraciətlər çox olur. Lakin müraciət edənlər arasında vizaya ehtiyacı olan ölkələrə gedən insanlar çoxluq təşkil edirlər ki, bu da məcburi xarakter daşıyır. Görünür, bu sahədə məlumatlandırma işləri aparmağa ehtiyac var».

«STİ Travel» şirkətindən bildirildiyinə görə, səyahət sığortası növü ilə bağlı şirkətə ötən il və cari ilin iki ayı ərzində 2500-ə yaxın müraciət daxil olub: «Lakin həqiqət bundan ibarətdir ki, ölkəmizdə öz sağlamlığını və təhlükəsizliyini düşünüb sığortalanan insanların sayı azdır. Vətəndaşlarımız yalnız «Şengen» ölkələrinə viza əldə etmək məqsədilə səyahət sığortası alırlar».

İlk Avropa Oyunlarının səfiri, peşəkar səyyah Azər Qəribov: «Xarici ölkələrə səyahət etməyi çox sevirəm. Bu günədək 81 ölkədə turist səfərlərində olmuşam. Səyahət sığortasını isə illik alıram. Xaricdə səfərdə olan adam xəstələnərsə onun müalicə, müayinə və dərman xərcləri, xəstənin və onu müşayiət edən şəxsin vətənə göndərilməsi də səyahət sığortasının hesabınadır. Başqa ölkədə yarana bilən müxtəlif vəziyyətlərdə hüquqi yardıma ehtiyac olduqda da zəruri xərclər səyahət sığortası vasitəsilə ödənilir.

Bəzi sığorta şirkətləri hətta səyahətə çıxarkən nəqliyyat vasitəsinə gecikmə hallarını da sığortalayırlar. Səyahət sığortası müqaviləsi səyahətə çıxmazdan əvvəl bağlanılır. Sığorta haqqı səfər edilən ölkədən, səfərin müddətindən və məqsədindən, sığorta ödənişinin məbləğindən asılı olaraq 5-30 manat arasında dəyişir. Amma səyahət sığortası, adətən, turist putyovkası və ya aviabiletlə birlikdə satıldığına görə, əksər hallarda səyahətə çıxanlar onu avtomatik alırlar. Mənim fikrimcə, bu, çox sərfəlidir».

**F.İKRAMQIZI**

# Azərbaycan iqtisadiyyatına yatırılmış xarici sərmayələrin həcmi 70 milyard dollardan çoxdur

*Qarşıdakı illərdə iqtisadiyyata sərmayə qoyuluşlarının böyük hissəsini regionlardakı qeyri-neft resurslarının inkişafına yönəltmək üçün strateji plan hazırlanır.*

Neftdənkənar sahələrdə istehsalın həcmini ən azı iki dəfə artırmağı hədəf seçən Azərbaycan hökuməti qeyri-neft istehsal sahələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, rayonlarda zavod, fabrik və müəssisələrin yaradılması üçün daxili və xarici investisiyaların həcminin artırılmasını zəruri hesab edir. İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bildirib ki, xarici sərmayədarların bu sahəyə cəlb olunması üçün müxtəlif stimullaşdırıcı addımların atılması nəzərdə tutulur. Bu məqsədlə müvafiq iqtisadi qurumların, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, ölkəmizdə fəaliyyət göstərən şirkətlərin təklifləri əsasında sərmayələrin təşviqinə dair layihə hazırlanacaq. Layihənin başlıca istiqamətləri sərmayə axınını cəlb etmək üçün daxili bazarın qorunmasına, ticarət əməliyyatlarının liberallaşdırılmasına, idxal-ixrac əməliyyatlarının təkmilləşdirilməsinə yönəldiləcək.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Məmmədovun sözlərinə görə, indiyədək respublikamızda xarici investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, əldə edilmiş mənfəətdən maneəsiz istifadə ilə bağlı mühüm qanunlar qəbul edilib. «İnvestisiya fəaliyyəti haqqında», «Xarici investisiyaların qorunması haqqında» qanunların icrası, eləcə də Azərbaycanla bir sıra xarici dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin qüvvəyə minməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların ölkəmizə marağının artmasına əsaslı zəmin yaradıb. Bu addımlar xarici sərmayəçilərin fəallığının yüksəlməsi və sayının artması ilə nəticələnib. Son 11 ildə xarici investorların sayı iki dəfədən çox artıb və hazırda Azərbaycanda yeddi min xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Həmin şirkətlərin 2500-ü Türkiyə, 600-ü Rusiya, 550-ə yaxını Böyük Britaniya mənşəli investisiyalar hesabına yaradılıb. Onlar Azərbaycanda həm dövlət əsaslı vəsait, həm də birbaşa öz maliyyə resursları hesabına həyata keçirilən layihələrdə iştirak edirlər.

Yeri gəlmişkən, 2015-ci ilin ilk iki ayında Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının həcmi 811 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 31,1 faiz çoxdur. Sərmayələrin 94,2 faizi (763,9 milyon manat) Böyük Britaniya, Norveç, Türkiyə, ABŞ, Fransa, İran, Rusiya və Yaponiya investorlarının payına düşüb. Beynəlxalq maliyyə institutlarından ən böyük investisiya həcmi Dünya Bankı tərəfindən qoyulub (31,75 milyon manat). Asiya İnkişaf Bankı bu dövrdə Azərbaycanda layihələrin reallaşdırılmasına 8,75 milyon manat, Avropa Yenidənqurma və İnkişaf Bankı isə 143,9 min manat ayırıb. Ümumilikdə, investisiyaların 90%-i iqtisadiyyatda yeni istehsal sahələrinin yaradılmasına və biznesin inkişafına yönəldilib.



Son 20 ildə Azərbaycan iqtisadiyyatına yatırılan ümumi sərmayələrin həcmi 150 milyard dollara çatıb. Sərmayələrin təxminən 50 faizə yaxını xarici sərmayələrin payına düşür. Xarici investorlar tərəfindən ölkəmizin iqtisadiyyatına yatırılmış sərmayələrin həcmi 70 milyard dollardan çoxdur. Bu vəsaitlərin böyük hissəsi neft və qaz sektorunu əhatə etsə də, qeyri-neft sektoruna yatırılan investisiyaların həcmi təxminən 20 milyard dollardır. Amma bu rəqəmin artırılması üçün təşviqedici siyasətin gücləndirilməsi vacib sayılır. Xarici sərmayəni təşviq etmək üçün, ilk növbədə, Rəqabət Məcəlləsinin qəbul olunması nəzərdə tutulur.

Xarici sərmayəçilərin ticarət əməliyyatlarını daha da asanlaşdırmaq məqsədilə hüquqi-texniki prosedurların sadələşdirilməsi işləri də aparılır. Dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin təkmilləşdirilməsi, idxal-ixrac zamanı gömrük nəzarətinin yumşaldılması yaxın vaxtlarda tətbiq olunacaq. Bu əməliyyatların həyata keçirilməsi üçün cəmi iki sənəd (nəqliyyat sənədi və bəyannamə) tələb olunacaq. Bununla da həmin sənədlərin sayı idxalda 11-dən 2-yə, ixracda isə 8-dən 2-yə endiriləcəkdir.

Yerli və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi, habelə biznes strukturlarının müştərək layihələrə marağının artırılması məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) fəaliyyəti də praktik nəticələr verir. Azərbaycan Respublikası Prezidentinin 30 mart 2006-cı il tarixli sərəncamına əsasən, investisiya qoyuluşları vasitəsilə qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə yaradılmış bu şirkət indiyədək yerli və xarici investorlarla birgə bir neçə böyük layihə həyata keçirib və ölkə iqtisadiyyatına 90 milyon manata yaxın investisiya qoyub. Qurumun təşəbbüskarı olduğu layihələrə xarici və yerli investorlar 1,9 milyard dollardan çox investisiya yatırıblar. Real sektora birbaşa investisiya qoyuluşu ilə yanaşı, AİŞ birgə investisiya fondları da təsis edir. İslam İnkişaf Bankı və Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası ilə birgə təsis olunmuş «Xəzər Beynəlxalq İnvestisiya Şirkəti» QSC ölkə iqtisadiyyatının qeyri-neft sektorunun müxtəlif sahələrinə investisiya qoyuluşlarını artırıb. Qurum yaxın beş ildə sərmayələrin həcmini 10 milyard dollara çatdırmağı planlaşdırır.

Onu da qeyd etmək yerinə düşər ki, ölkəmizdə həyata keçirilən vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradır. Respublikamızın bu sahədə bir sıra beynəlxalq müqavilələrə qoşulması, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdıran təsirli vasitələrdəndir.

**Elbrus CƏFƏRLİ**

# İlk aqrar sənaye parkı istifadəyə verilib

Qarabağ aqrar sənaye parkında 5 min tonluq logistik mərkəz, 4200 başlıq ətlik və südlük istiqamətli heyvandarlıq kompleksləri, illik 5,4 min ton istehsal gücünə malik ət kəsimi və emalı fabriki, saatda 10 ton yem istehsal edən zavod daxildir. Dəyəri 32 milyon manat olan komleksin inşasına Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 20,4 milyon manat güzəştli kredit verilib. Yeni sənaye kompleksi dünyanın aparıcı şirkətlərinin müasir kənd təsərrüfatı avadanlıqları üzrə ən son texnologiyaları ilə təchiz olunub.

İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Zaur Qasımovun fikrincə, ilin sonuna kimi digər regionlarda da aqrar sənaye parklarının yaradılması mümkün olacaq. Yaxın 4-5 il ərzində ölkənin əksər rayonlarında bu cür komplekslərin yaradılması planlaşdırılır.

Aqrar sənaye parklarının yaradılması yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır. Belə komplekslər idxaldan asılılığın aradan qaldırılmasına, daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsinə və ərzaq təhlükəsizliyinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Burada kənd təsərrüfatına aid maşın və texnikalar, onların ehtiyat hissələri hazırlanacaq, gübrə və kimyəvi-mineral maddələr istehsal olunacaq.

Layihə çərçivəsində aqrar sahəyə maliyyə dəstəyi və özəl bankların bu istiqamətdə kapitallaşmanı gücləndirməsi, yeni kredit və bank tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa, xarici investorların cəlb edilməsi ilə respublikada kənd təsərrüfatı təyinatlı texnikanın istehsalının təşkili də planlaşdırılır. Bu məqsədlə Azərbaycan İnvestisiya Şirkəti xarici sərmayəçilərlə birgə yeni layihələr hazırlayıb həyata keçirəcək və xarici ölkələrdən Azərbaycana gətirilən maşınqayırma məhsullarının idxalı aradan qalxacaq.

Avropa Yenidənqurma və İnkişaf Bankı da Azərbaycanda aqrar sənaye layihələrini maliyyələşdirəcəyini açıqlayıb. Bankın Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Nil Makkeyn bildirib ki, aqrar sənaye parklarının yaradılması bankın kredit siyasətində yer alıb və yaxın vaxtlarda Azərbaycan hökuməti ilə maliyyələşməyə dair sənədin imzalanması nəzərdə tutulur. Sazişə əsasən, regionlarda aqrar parkların, logistik bazaların, həmçinin «yaşıl market»lərin yaradılmasına maliyyə dəstəyi göstəriləcək.



...gücləndirilməsinə xidmət edir. Bu həm də ölkədə ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalını stimullaşdıracaq.

Aqrar sənaye parkları kənd mülkiyyətçilərinin və fermerlərin problemlərinin həll olunması, onların təsərrüfatlarının maddi-texniki bazasının möhkəmlənməsi...

Növbəti mərhələdə aqrar komplekslərin tərkib hissəsi kimi avtorefrijerator parklarının yaradılması, ixtisaslaşdırılmış «fermer mağazaları» və «yaşıl marketlər» şəbəkəsinin təşkili nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# «Yaşıl kart» sığorta sisteminin tətbiqinə hazırlıq gedir

2016-cı il yanvarın 1-dən «Yaşıl kart» sistemi üzrə fəaliyyət göstərmək istəyən sığorta şirkətləri müəyyən edilmiş tariflər üzrə sığorta müqavilələri bağlayacaqlar. Maliyyə Nazirliyi Kollegiyasının qərarına görə, «Yaşıl kart» beynəlxalq sığorta sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən bu sistem üzrə tətbiq ediləcək sığorta haqları «Yaşıl kart» sisteminə daxil olan ölkələrin qanunvericiliyində nəzərdə tutulmuş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari məbləğləri 3 kateqoriyaya əsasən müəyyən edilib. «Yaşıl kart» müqavilələri üzrə Türkiyə və İrana gedən avtonəqliyyat vasitələri; Belarus, Moldova, Rusiya və Ukraynaya gedən avtonəqliyyat vasitələri; «Yaşıl kart» sisteminə daxil olan digər ölkələrə gedən avtonəqliyyat vasitələri üçün nəzərdə tutulan sığorta haqlarının məbləğləri fərqlidir. Müqavilələr 1, 3, 6 və 12 ay müddətinə bağlanılacaq.

Sistem çərçivəsində fəaliyyət göstərmək istəyən sığortaçılar İcbari Sığorta Bürosuna 10 min manat məbləğində birdəfəlik ödəniş etməlidirlər.

***Birinci kateqoriya üzrə nəzərdə tutulan sığorta haqları***

Avtonəqliyyat vasitəsinin mühərrikinin həcmi 50 $sm^3$ - 1500 $sm^3$ olduqda 1 ay üçün 15, 1 il üçün 80 manat, 1501 $sm^3$ - 2000 $sm^3$ olduqda müvafiq olaraq 17-90, 2500 $sm^3$-ə qədər 20-100, 3000 $sm^3$-ə qədər 22-110, 3500 $sm^3$-ə qədər 25-130, 4000 $sm^3$-ə qədər 30-150, 4500 $sm^3$-ə qədər 40-170, 5000 $sm^3$-ə qədər 50-190, 5000 $sm^3$-dən çox olduqda 1 ay üçün 70, 1 il üçün 220 manat müəyyən edilib.

Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələrində isə sığorta haqqı məbləğləri sərnişin yerlərinin sayına görə hesablanır. Nəqliyyat vasitəsində sərnişin yerlərinin sayı 9-16 olduqda 1 ay üçün 80, 1 il üçün 240 manat, yerlərin sayı 16-dan artıq olduqda isə 1 ay üçün 90, 1 il üçün 360 manat müəyyən edilib.

Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri üçün icazə verilən maksimum kütləsinə görə sığorta məbləği hesablanır. İcazə verilən maksimum kütlə 3500 kq-dan çox olmadıqda 1 ay üçün 80, 1 il üçün 350 manat müəyyən edilib. Maksimum kütlə 3500 kq-dan çox olduqda məbləğ də artır.




Motosikletlər və motorollerlər, eləcə də qoşqular və yarımqoşqular üçün nəzərdə tutulan sığorta haqqı məbləği eynidir: 1 aylıq 12, 1 illik 70 manat.

Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri üzrə 1 aylıq 25, 1 illik 100 manat məbləğində sığorta haqqı nəzərdə tutulub.

***Ən aşağı sığorta haqqı***

«Yaşıl kart» müqavilələri üzrə Belarus, Moldova, Rusiya və Ukraynaya gedən avtonəqliyyat vasitələri üçün nəzərdə tutulan sığorta haqları Türkiyə və İran İslam Respublikasına gedən avtonəqliyyat vasitələrinə nisbətən ucuzdur. Mühərrikinin həcmi 50 $sm^3$ - 1500 $sm^3$ olan minik avtomobillərinin sahibləri 1 ay üçün 10, 1 il üçün 50 manat məbləğində sığorta haqqı ödəməlidirlər. Mühərrikin həcmi artdıqca məbləğlər də artır. Mühərrikin həcmi 5000 $sm^3$-dən çox olduqda 1 aylığa 50, bir illiyə 190 manat məbləğində sığorta haqqı ödənilməlidir.

Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələrində sərnişin yerlərinin sayı 9-16 olduqda 1 ay üçün 60, 1 il üçün 200 manat, yerlərin sayı 16-dan artıq olduqda isə 1 ay üçün 80, 1 il üçün 300 manat müəyyən edilib.

Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri üçün sığorta məbləği icazə verilən maksimum kütləyə görə hesablanır. İcazə verilən maksimum kütlə 3500 kq-dan çox olmadıqda müvafiq olaraq 1 aylığa 50, 1 illiyə 300 manat sığorta haqqı ödəmək lazım gələcək. Kütlə artdıqca məbləğlər də dəyişir.

Motosikletlər və motorollerlər, eləcə də qoşqular və yarımqoşqular üçün nəzərdə tutulan sığorta haqqının məbləği eynidir: 1 aylıq 10 manat, 1 illik 50 manat.

Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri üçün 1 aylığa 20, 1 illiyə 80 manat məbləğində sığorta haqqı nəzərdə tutulub.

***«Yaşıl kart» sisteminə daxil olan ölkələrə gedən avtonəqliyyat vasitələri üçün sığorta haqları***

Bu kateqoriya üzrə sığorta haqlarının məbləği digər iki kateqoriyadan daha yüksəkdir. Minik avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri üzrə mühərrikin həcmi 50 $sm^3$ - 1500 $sm^3$ olduqda aylıq 30, illik 100 manat, 5000 $sm^3$-dən çox olduqda isə aylıq 100, illik 400 manat məbləğində sığorta haqqı ödəniləcək.

Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələrində sərnişin yerlərinin sayı 9-16 olduqda 1 ay üçün 150, 1 il üçün 600 manat, yerlərin sayı 16-dan artıq olduqda isə 1 ay üçün 230, 1 il üçün 900 manat müəyyən edilib.

Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri üçün sığorta məbləği icazə verilən maksimum kütləyə görə hesablanır. Avtonəqliyyat vasitələri üçün icazə verilən maksimum kütlə 3500 kq-dan çox olmadıqda sığorta məbləği aylıq 160, illik 600 manatdır.

Motosikletlər və motorollerlər üçün aylıq 30, illik 100 manat, qoşqular və yarımqoşqular üçün aylıq 35, illik 120 manat, traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri üçün aylıq 60, illik 250 manat məbləğində sığorta haqqı nəzərdə tutulub.

Qeyd edək ki, «Yaşıl kart» sistemi 1953-cü il yanvarın 1-dən tətbiq olunmağa başlamışdır. Bu sistem Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası və avtonəqliyyat vasitələri sığortaçılarının milli bürolarının beynəlxalq assosiasiyası, eyni zamanda «Yaşıl kart» sisteminin idarəedici təşkilatı olan Bürolar Şurası tərəfindən qəbul edilmiş formada bağlanan, Bürolar Şurasının üzvü olan hər hansı ölkədə aid olduğu avtonəqliyyat vasitəsinin istifadəsi ilə bağlı mülki məsuliyyətin icbari sığortasının mövcudluğunu təsdiq edən beynəlxalq sığorta müqaviləsidir. Sistemə əsasən, «Yaşıl kart» haqqında sazişin iştirakçıları olan dövlətlərin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər dövlətlərin ərazisində etibarlı sayılır. «Yaşıl kart» sistemi 50-yə yaxın ölkədə qüvvədədir.

Əlavə edək ki, ölkə ərazisində qeydiyyatdan keçmiş avtonəqliyyat vasitəsi «Yaşıl kart» sisteminin tətbiq edildiyi xarici ölkə ərazisində müvəqqəti istifadə məqsədilə ölkə ərazisini tərk etməzdən əvvəl «Yaşıl kart» əldə etməlidir. Azərbaycanda avtonəqliyyat vasitəsinin sahibi «Yaşıl kart» müqaviləsini yalnız bu sistemdə fəaliyyət göstərmək hüququna malik yerli sığortaçılarla bağlaya bilər.

**AYTƏN**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li və 112№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk.

Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır. Bu dəfə misal olaraq avadanlığın konservasiya edilmədən, yəni istismardan ayırıb anbara təhvil vermədən bir başa istismar sahəsindən alıcıya satılması ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik.

*Misal.* Müəssisə 2012-ci ilin yanvar ayında faydalı istismar müddəti 5 il və son qalıq dəyəri 800 manat müəyyənləşdirilməklə 5000 manat dəyərində generator avadanlığı almışdır. Sahibkar tərəfindən avadanlığa azalan qalıq metodu ilə illik 20% amortizasiya dərəcəsi tətbiq olunması qərarı verilmişdir. Lakin 03.10.2014-cü il tarixdə rəhbərlik tərəfindən həmin avadanlığın yenisi ilə əvəz edilməsi məqsədilə satılması qərarı verilmişdir. Avadanlıq konservasiya edilmədən birbaşa istehsalat ərazisindən alıcıya 3500 manata satılmışdır. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə 2012-ci ilin yanvar ayından 03.10.2014-cü il tarixədək olan dövr üzrə hesablanmalı olan (mühasibat uçotu məqsədləri üçün) amortizasiya dəyərini müəyyənləşdirək. Satış tarixinə avadanlıq üzrə yığılmış amortizasiya dəyəri 1915 (840 + 672 + 403) manat, balans (qalıq) dəyəri isə 3085 (5000 - 1915) manat təşkil edəcəkdir. İkili yazılışlar isə aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 31.12.2012 | 202, İstehsal məsrəfləri | 2012-ci ilin yanvar ayından 03.10.2014-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | 1915 | |
| 31.12.2012 | 112, Torpaq, tikili və avadanlıqlar – amortizasiya dəyəri | 2012-ci ilin yanvar ayından 03.10.2014-cü il tarixədək olan dövr üzrə hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | | 1915 |
| 03.10.2014 | 112, Torpaq, tikili və avadanlıqlar – amortizasiya dəyəri | Satılmış avadanlığın satış tarixinə yığılmış amortizasiya dəyəri uçotdan silinir | 1915 | |
| 03.10.2014 | 111, Torpaq, tikili və avadanlıqlar – ilkin dəyər | Satılmış avadanlığın satış tarixinə yığılmış amortizasiya dəyəri uçotdan silinir | | 1915 |
| 03.10.2014 | 731, Sair əməliyyat xərcləri | Satılmış avadanlığın satış tarixinə balans (qalıq) dəyəri uçotdan silinir | 3085 | |
| 03.10.2014 | 111, Torpaq, tikili və avadanlıqlar – ilkin dəyər | Satılmış avadanlığın satış tarixinə balans (qalıq) dəyəri uçotdan silinir | | 3085 |
| 03.10.2014 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Satılmış avadanlığın satış dəyəri uçota alınır | 3500 | |
| 03.10.2014 | 611, Sair əməliyyat gəlirləri | Satılmış avadanlığın satış dəyəri uçota alınır | | 3500 |
| 03.10.2014 | 801, Ümumi mənfəət (zərər) | 731, "Sair əməliyyat xərcləri" hesabının bağlanması | 3085 | |
| 03.10.2014 | 731, Sair əməliyyat xərcləri | 731, "Sair əməliyyat xərcləri" hesabının bağlanması | | 3085 |
| 03.10.2014 | 611, Sair əməliyyat gəlirləri | 611, "Sair əməliyyat gəlirləri" hesabının bağlanması | 3500 | |
| 03.10.2014 | 801, Ümumi mənfəət (zərər) | 611, "Sair əməliyyat gəlirləri" hesabının bağlanması | | 3500 |

Cədvəldən göründüyü kimi, 801 №-li «Ümumi mənfəət (zərər)» hesabında 415 (kt 3500 - dt 3085) manat kredit qalığı qalacaqdır. Deməli, avadanlığın dərhal (birbaşa istismar sahəsindən) satışından 415 manat mənfəət əldə edilmişdir.

# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|---|
| 1 | Bakı VD | «QARTAL-N» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| 2 | Bakı VD | «QURAŞDIRICI-S» MMC | Bakı şəhəri Xətai rayonu |
| 3 | Bakı VD | «Endem inşaat sanayi ve ticaret anonim şirketi"nin Azərbaycan Respublikasındakı filialı | Bakı şəhəri Nərimanov rayonu |
| 4 | Bakı VD | «Sənayeləşdirilmiş evtikmə» İstehsalat Birliyi | Bakı şəhəri Binəqədi rayonu |
| 5 | Bakı VD | «AQRO-MTS» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| 6 | Bakı VD | «VİJN AZƏRBAYCAN» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| 7 | Bakı VD | «İNŞAAT SERVİS-YKT» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| 8 | Bakı VD | ŞABANOV MALİK CUMXUR OĞLU | Bakı şəhəri Nərimanov rayonu |
| 9 | Bakı VD | «TROYA LTD» MMC | Bakı şəhəri Yasamal rayonu |
| 10 | Bakı VD | «H.A.H.-STONE HOUSE» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| 11 | Bakı VD | «R.İ.S.K.» firmasi | Bakı şəhəri Yasamal rayonu |
| 12 | Bakı VD | «ŞÜVƏLAN» ATSC | Bakı şəhəri Xəzər rayonu |
| 13 | Bakı VD | «PLANET TUR» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| 14 | Bakı VD | «Gelişim inşaat turizm sanayi ve ticaret LTD» şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi | Bakı şəhəri Xətai rayonu |
| 15 | Bakı VD | «ATLAS ELEKTRONİK-2013» MMC | Bakı şəhəri Yasamal rayonu |
| 16 | Bakı VD | «VİTEYK GROUP» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| 17 | Bakı VD | «ELEQANT-A.L.» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| 18 | Bakı VD | «İNTELLEKT-SUN» MMC | Bakı şəhəri Sabunçu rayonu |
| 19 | Bakı VD | «VENEZIA DESIGN SRL» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| 20 | Bakı VD | ƏLİYEV VÜQAR BƏYLƏR OĞLU | Bakı şəhəri Xəzər rayonu |
| 21 | Bakı VD | «SÖNMEZ ELEKTRİK VE ELEKTRONİK» MMC | Bakı şəhəri Səbail rayonu |
| 22 | Bakı VD | «XƏZƏR BSS» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| 23 | Bakı VD | «TURYOL» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| 24 | 2 saylı ƏVD | «MƏHƏMMƏDLİ İNŞAAT» MTK | Sumqayıt şəhəri |
| 25 | 2 saylı ƏVD | MƏMMƏDOV ETİBAR ƏLİ OĞLU | Abşeron rayonu |
| 26 | 2 saylı ƏVD | Sumqayit Şəhər icarə müəssisəsi «AZMƏNZİLSƏNAYETİKİNTİTƏMİR» Birliyinin mənzil təmir-tikinti İdarəsi | Sumqayıt şəhəri |
| 27 | 2 saylı ƏVD | ƏHMƏDOV VİLAYƏT TAHİR OĞLU | Sumqayıt şəhəri |
| 28 | 2 saylı ƏVD | «SƏDA 7» MMC | Sumqayıt şəhəri |
| 29 | 4 saylı ƏVİ | «DUNKAN» MMC | Qobustan rayonu |
| 30 | 6 saylı ƏVİ | «CRUISER 1959» MMC | Lənkəran rayonu |
| 31 | 6 saylı ƏVİ | «GRASE 2013» MMC | Lənkəran rayonu |
| 32 | 10 saylı ƏVİ | «BRAVO-ASD» MMC | Qəbələ rayonu |
| 33 | 11 saylı ƏVD | MƏMMƏDOV ŞAHLAR MƏHƏMMƏD OĞLU | Bərdə rayonu |
| 34 | 11 saylı ƏVD | «İNŞAAT-R LTD» MMC | Bərdə rayonu |
| 35 | 12 saylı ƏVD | «Daşkəsən meşə mühafizəsi və bərpası» müəssisəsi | Daşkəsən rayonu |
| 36 | 13 saylı ƏVİ | «HAÇADAĞ» MMC | Balakən rayonu |
| 37 | 13 saylı ƏVİ | «SERVİS-CO» MMC | Balakən rayonu |
| 38 | 14 saylı ƏVİ | «ARAZ TRADİNG» MMC | Gədəbəy rayonu |
| 39 | 14 saylı ƏVİ | «RENESANS TRD» MMC | Gədəbəy rayonu |
| 40 | 14 saylı ƏVİ | «QRİNBERQ» MMC | Gədəbəy rayonu |

## vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| **20** | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel – «(1) və (2)».
20 aprel – «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Kommersiya təşkilatlarının maliyyə hesabatları hara (kimə) təqdim edilməlidir...

Kommersiya təşkilatlarının (kredit təşkilatları və kiçik sahibkarlıq subyektləri istisna) rəhbər və səhmdarlarını (təsisçilərini) maraqlandıran məsələlərdən biri də rəhbəri və ya təsisçisi (səhmdarı) olduğu hüquqi şəxsin maliyyə hesabatlarının hansı müddətdə hara (kimə) təqdim edilməsidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 97 nömrəli 27 may 2010-cu il tarixli Qərarı ilə təsdiq olunmuş «Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları»nın 3.1-ci bəndinə əsasən, kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) hesabat dövrü başa çatdıqdan sonra (cari ilin 31 dekabr tarixindən sonra) illik maliyyə hesabatlarını sonrakı ilin aprel ayının 30-dan, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını isə iyun ayının 30-dan gec olmayaraq təqdim etməlidirlər.

Qaydaların 3.2-ci bəndinə əsasən, kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) illik maliyyə hesbatlarını tabe olduğu yuxarı təşkilata və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edən əsas cəmiyyətə, bunlar olmadıqda isə təsisçiyə (təsisçilərə) təqdim edir. Burada maraqlı olan hesabatların təsisçilərə (səhmdarlara) təqdim edilməsidir. Məsələn, hər hansı MMC-nin maliyyə hesabatları həmin MMC-nin təsisçilərinə rəsmi qaydada təqdim edilməlidir, yəni hesabatların bütün formaları təsisçilər tərəfindən təhvil-qəbul edilməlidir və bunu məktub və ya «hesabatların təhvil-qəbul aktı» tərtib etməklə həyata keçirmək olar və bu, Qaydaların tələbidir.

Elə hallar baş verə bilər ki, hesabatların eyni zamanda başqa şəxslərə də təqdim edilməsi zərurəti yarana bilər. Məsələn, Qaydaların 3.5-ci bəndinə görə, kommersiya təşkilatlarının içərisindən dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları (təşkilatın rəhbərliyi) illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda və qaydada auditor rəyi ilə birlikdə Maliyyə Nazirliyinə təqdim edirlər.

Qaydalarda təsisçilərin (səhmdarların) və kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatının da üzərinə öhdəlik qoyulmuşdur. Belə ki, Qaydaların 3.4-cü bəndinin tələbinə görə, kommersiya təşkilatının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatlar onların tabe olduqları yuxarı təşkilat və ya təsisçi (təsisçilər) tərəfindən bu hesabatların sonuncu təqdimetmə günündən sonra 10 gün ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verilir. Deməli, illik maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatı və ya təsisçisi (təsisçiləri) may ayının 1-dən 10-dək, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatlarının tabe olduqları yuxarı təşkilatı və ya təsisçisi (təsisçiləri) isə iyul ayının 1-dən 10-dək müvafiq maliyyə hesabatları barədə məlumatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verir.

Qeyd edək ki, Iməlumatlar» dedikdə, Imaliyyə hesabatları» başa düşülməməlidir. Qaydaların 3.5-ci maddəsində nəzərdə tutulan kommersiya təşkilatlarından başqa, digər təşkilatlar tərəfindən Maliyyə Nazirliyinə maliyyə hesabatlarının təqdim edilməsi Qaydalarda nəzərdə tutulmamışdır. Qaydaların 3.4-cü maddəsinə əsasən, maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatlar təsisçilər tərəfindən Maliyyə Nazirliyinə təqdim olunduqdan sonra həmin məlumatlarda maliyyə hesabatlarının hazırlanması və təsisçilərə təqdim edilməsi ilə əlaqədar hər hansı qanun pozuntularına yol verilməsi ilə bağlı faktlar göstərildiyi halda, Maliyyə Nazirliyi bu barədə qanunvericiliyə uyğun tədbirlər görə bilər.

Aparılan müşahidələr onu deməyə əsas verir ki, Maliyyə Nazirliyinə məlumat verməli olan yuxarı təşkilat rəhbərləri və ya təsisçilər sözügedən məlumatların verilməsini, həmçinin Maliyyə Nazirliyinə maliyyə hesabatlarını təqdim etməli olan kommersiya təşkilatları qanunla müəyyənləşdirilən hesabatların təqdim edilməsini lazımi qaydada təmin etmirlər. Bu məlumatların verilməsinin və hesabatların təqdim edilməsinin yuxarı təşkilat və ya təsisçilər üçün böyük əhəmiyyəti vardır. Belə ki, Maliyyə Nazirliyi mühasidat uçotu sahəsində nəzarətedici və tənzimləyici dövlət orqanı olaraq məlumatları və maliyyə hesabatlarını araşdırır, maliyyə hesabatlarında buraxılan əhəmiyyətli səhvlərin düzəldilməsində təsərrüfat subyektlərinə yardımçı olur, həmçinin təsisçilərin və ya yuxarı təşkilatın yaxşı məlumatlanmış maliyyə hesabat göstəriciləri ilə təmin olunmasına xidmət edir. Məcburi auditin obyekti olan, lakin auditdən keçməyən kommersiya təşkilatları da az deyildir. Bu cür kommersiya təşkilatının təsisçisi və yuxarı təşkilatı rəhbərlik tərəfindən ona təqdim olunan maliyyə hesabatına inanmaq məcburiyyətində qalır, lakin maliyyə hesabatlarına ən azından Maliyyə Nazirliyi tərəfindən baxılması və hesabat göstəricilərinin qiymətləndirilməsi təsisçilərin, əsasən də az paya malik payçıların (səhmdarların) tam maraqlarına xidmət etmiş olar.

Maliyyə hesabatlarını qanunvericiliyə müvafiq olaraq hazırlamayan və təqdim etməyən kommersiya təşkilatları qanunla məsuliyyət daşıyırlar. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 247-1-ci (Mühasibat uçotu üzrə qanunvericiliyin pozulması) maddəsinə əsasən, mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və sığorta nəzarəti orqanına təqdim edilməli olan digər hesabat və məlumatların qanunvericiliyə müvafiq olaraq hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanunvericiliyə əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin tam və ya düzgün əks etdirilməməsinə, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmasına görə vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək miqdarda, hüquqi şəxslər isə min beş yüz manatdan iki min manatadək miqdarda cərimə edilirlər.

beynəlxalq panoram

# Belçika ədalətsiz vergi güzəştləri verməkdə ittiham olunur



Avropa İttifaqı Belçikada transmilli şirkətlərə ədalətsiz vergi imtiyazları tətbiq edilməsindən şübhələnir. Bu səbəbdən də Aİ tərəfindən Belçikaya münasibətdə tədqiqatlara başlanılıb. Belçika qanunları transmilli şirkətlərə beynəlxalq strukturlara aid fəaliyyətləri üzrə gəlirlərini mənfəət vergisi bazasından çıxarmağa imkan verir. Fəaliyyətləri yalnız Belçika ərazisində olan şirkətlər isə bu hüquqa malik deyillər. Avropa Komissiyası hesab edir ki, bu qaydalar rəqabət azadlığını pozur.

Avropa İttifaqının antiinhisar idarəsinin rəhbəri Marqret Fastaqer bildirib ki, Belçika vergi qanunvericiliyində şirkətlərə vergilərin ödənilməsi zamanı belə güzəştlər verilməsi halları öz təsdiqini taparsa, bu, rəqabət prinsiplərinin ciddi şəkildə pozulması kimi qarşılana bilər.

Xatırladaq ki, ötən ilin sonunda Lüksemburqa da oxşar ittihamlar irəli sürülmüşdü. Avropa İttifaqının araşdırmaları təsdiq etmişdi ki, Lüksemburq təxminən 300 transmilli şirkətə vergi güzəştləri verib və bununla da milyardlarla avro vergini gizlətməyə imkan yaradıb. Məhz bu səbəbdən Avropa İttifaqının rəhbərliyi üzv ölkələrdə araşdırmalara başlayıb. Əsassız vergi güzəştlərinin verilməsi halları İrlandiya və Niderlandda da qeydə alınıb.

# Sərvət vergisi Çexiya xəzinəsinə xeyli gəlir gətirib

*Çexiya vergi xidməti zəngin insanların gəlirlərinə müəyyən edilmiş əlavə ödəmələr («həmrəylik» vergisi adlandırılır) hesabına büdcəyə 4,23 mlrd. kron (1 kron=0,0415 manat) vəsait toplayıb.*

Sabiq baş nazir Peter Nekasın rəhbərlik etdiyi hökumət büdcə kəsirini azaltmaq üçün üç il əvvəl «həmrəylik» vergisini tətbiq etmişdi. O zaman Maliyyə Nazirliyi yeni yığım hesabına 2 mlrd. kron yığılacağına ümid edirdi. Nəticədə xəzinəyə bundan 2 dəfədən çox vəsait daxil oldu.

Bu vergi üzrə bəyannaməni aylıq gəliri 103536 kronu ötən şəxslər təqdim etməli idilər. Onların çalışdıqları şirkətlər vergi agenti olaraq həmin şəxslərin yerinə vergi girovu qoyurdular. Əgər onların illik maaşları qoyulmuş həddi keçmirdisə, o zaman girov şirkətə qaytarılırdı.

Bütövlükdə 55 min nəfərdən çox insan 1,24 mln. krondan yuxarı ümumi illik gəlir bəyan edib. Bundan başqa, daha 150 min bəyannamə verən şəxsin girovu qaytarılıb. Hökumət bu ödəmənin ləğv ediləcəyini, əməkhaqqından ümumi gəlir vergisinin hesablanması sisteminə qayıdılacağını və proqressiv vergi dərəcələrinin tətbiq olunacağını vəd edib.

# Neft sahəsinin stimullaşdırılması üçün vergilər aşağı salınmayacaq



Norveçin Baş naziri Erna Sulberq bildirib: «Biz, əlbəttə, köhnə yataqların inkişaf etdirilməsini və çıxarılan ehtiyatların mümkün qədər çox olmasını istərdik. Artıq uzun illərdir ki, bu məqsədlə yeni texnologiyalardan istifadə edirik. Lakin əgər hansısa layihə kommersiya cəhətdən səmərəli olmayacaqsa, vəziyyəti düzəltmək üçün biz vergitutma sistemini dəyişdirmək niyyətində deyilik». Hökumət başçısının sözlərinə görə, 2003-2004-cü illərdə Şimal dənizindən hasil olan neftin qiyməti bir barel üçün 30 dollar səviyyəsində idi. O zaman neft sektoru fəal şəkildə vergi güzəştləri almağa çalışırdı. Baş nazir vurğulayıb ki, hökumət həmin vaxtlarda neft sektorunun təzyiqinə davam gətirməsəydi, sonrakı 10 il ərzində dövlət külli miqdarda gəlirlərindən məhrum olacaqdı. «Əlbəttə, bu, neft şirkətlərinin narazılığına səbəb olmuşdu, lakin hökumət xalqa çatacaq gələcək gəlirləri daha əhəmiyyətli hesab edərək neft biznesinin qəzəbinə dözməyə çalışdı», - hökumət başçısı qeyd edib.

«Ernst & Young» beynəlxalq konsaltinq şirkətinin dəyərləndirməsinə əsasən, 2014-cü ildə Norveçin neft sektoru şirkətlərinin ümumi gəliri 470 milyard krona (təxminən 60 milyard dollar) çatmışdır. 2015-ci ildə bu göstəricinin 7% azalacağı gözlənilir. Norveçdə neft-qaz sahəsinin ÜDM-də payı 25% təşkil edir.

Xarici ölkələrin təcrübəsi

# Slovakiya Respublikası: fiziki şəxslərin gəlir vergisi

Slovakiyada fiziki şəxslər gəlir vergisi, sosial sığorta ödəmələri ilə yanaşı, mülkiyyətlərində olan torpaq və binalardan bələdiyyə vergisi də ödəyirlər. Vergi məqsədləri üçün rezident fiziki şəxslər ümumdünya gəlirləri üzrə, qeyri-rezident fiziki şəxslər isə Slovakiya mənbəyindən əldə etdikləri gəlirlər üzrə vergiyə cəlb olunurlar.

Daimi yaşayış yeri və ya adətən yaşadığı yer Slovakiyada olan şəxslər rezident hesab olunur. Fiziki şəxsin yaşadığı yer o vaxt Slovakiya Respublikası hesab olunur ki, təqvim ili ərzində üst-üstə 183 gündən artıq müddətdə burada olsun. Təhsil və ya müalicə məqsədilə Slovakiyada olan və ya Slovakiyanın sərhədlərini gündəlik əsasda keçən və ya Slovakiya ərazisində razılaşdırılmış faizlərlə asılı fəaliyyət göstərən şəxslər istisnadır. Bütün digər şəxslər isə qeyri-rezident hesab olunur.

***Vergiyə cəlb olunan gəlir:*** Gəlir nağd və ya natura şəklində olmasından asılı olmayaraq, əldə olunan hər hansı faydanı əhatə edir. Pul şəklində olmayan faydalar azad bazar qiymətlərinə əsasən hesablanır.

Fiziki şəxsin vergiyə cəlb olunan gəliri müxtəlif gəlir kateqoriyalarının xalis nəticələrinin toplanması şəklində hesablanır. Son ödəmə mənbəyində vergiyə cəlb olunan gəlir məcmu gəlirlərə daxil edilmir. 2013-cü il yanvarın 1-dən məcmu gəlir proqressiv dərəcələrlə vergiyə cəlb olunur. 2013-cü ildən əvvəl isə 19% dərəcə tətbiq edilirdi.

Fiziki şəxslərdən gəlir vergisi məqsədləri üçün aşağıda qeyd olunan gəlir növləri cəmlənir:

1. Muzdlu işdən gəlir - (əməkhaqqı, cari, əvvəlki və ya gələcək iş yerindən gəlir, kooperativ üzvlərinin gəlirləri, məhdud məsuliyyətli cəmiyyətlərin ortaq və ya qanuni nümayəndələrinin gəlirləri və məhdud ortaqlıqların işindən gəlir, natura şəklində gəlirlər, pensiya gəlirləri, direktorlara ödənilən haqlar).

2. Sahibkarlıq fəaliyyətindən əldə olunan və ya digər gəlirlər (müstəqil gəlirli fəaliyyətdən gəlir, icarə haqqı və iş, sənət fəaliyyətindən gəlir). Sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə kənd təsərrüfatı mallarının istehsalı, meşə və su resurslarının idarə olunması, ticarət gəlirləri, xüsusi qaydalara uyğun olaraq həyata keçirilən digər sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər, həmçinin tərəfdaşlıqların əsas ortaqlarının səhmlərindən əldə olunan mənfəət daxildir.

3. Kapital gəlirləri;

4. Digər gəlirlər (misal üçün, mütəmadi olmayan, təsadüfi gəlirlər).

*Vergidən azad olunan gəlirlərə daxildir:*

- sosial sığorta, işsizlik sığortası, sağlamlıq sığortası və ya digər sosial qayğı müavinətləri və faydalar;
- dövlət fondları və xaricdən alınmış qrantlar;
- zərərin ödənilməsi üzrə kompensasiyalar və müəyyən şərtlər daxilində sığorta kompensasiyaları;
- 2014-ci il yanvarın 1-dən şirkət tərəfindən əldə olunan mənfəətin bölüşdürülməsi şəklində ödənilən dividendlər;
- müəyyən kapital gəlirləri;
- icarə haqqından gəlirlər və mütəmadi olmayan fəaliyyətdən və ya daşınan əmlakın mütəmadi olmayaraq icarəsindən gəlirlərin 500 avroyadək olan hissəsi;
- vergi orqanının səbəb olduğu artıq vergi ödənişləri üzrə faizlər.

***Dərəcələr:*** 2013-cü ildən məcmu gəlir vergiyə proqressiv dərəcələrlə cəlb olunur. 2013-cü ildən əvvəl isə 19% vahid dərəcə tətbiq edilirdi.

2014-cü ildə əldə olunan gəlirlərə tətbiq olunan vergi dərəcələri aşağıdakılardır:

- vergiyə cəlb olunan illik gəlir 35.022,31 avroyadək olduqda (yaşayış minimumunun 176,8 misli) 19%;
- vergiyə cəlb olunan illik gəlir 35.022,31 avrodan çox olduqda 25%.

Bundan əlavə, qanunverici orqanların üzvləri (misal üçün: prezident, parlament üzvləri) əməkhaqlarından 5% dərəcə ilə əlavə vergi ödəyirlər.

***Gəlirdən çıxılan xərclər:*** 2011-ci ildən əmanət sxemləri və əlavə pensiya sığortalarına ödənilən məbləğlər gəlirdən çıxılmır. 2014-cü ildən əlavə pensiya sığorta ödəmələri müəyyən şərtlər daxilində hər il 180 avroyadək gəlirdən çıxıla bilər.

1 yanvar 2013-cü ildən 31 dekabr 2016-cı ilədək əlavə pensiya sığortalarına edilmiş bəzi könüllü ödənişlər muzdlu işdən, sahibkarlıq fəaliyyətindən və digər müstəqil gəlirli fəaliyyətdən əldə edilmiş gəlirin 2%-dək olan məbləğində gəlirdən çıxıla bilər.

***Zərərlər:*** 1 yanvar 2012-ci ildən sahibkarlıq fəaliyyətindən və digər müstəqil gəlirli fəaliyyətdən əldə edilən gəlirlər üzrə yaranan vergi zərərləri yalnız həmin fəaliyyət növlərindən əldə olunan gəlirlərlə kompensasiya edilə bilər. Bundan əvvəl yaranmış zərər müəyyən istisnalarla digər gəlirlərin hesabına kompensasiya edilə bilər (məsələn, zərərin muzdlu işdən əldə olunan gəlirlə kompensasiya edilməsi). Kompensasiya edilə bilməyən zərər növbəti ilə keçirilə bilər.

2014-cü ilədək vergi zərərləri qeyri-bərabər hissələrlə növbəti 7 illik müddətə keçirilə bilərdi. Həmin tarixdən isə zərər bərabər hissələrlə növbəti 4 illik müddətə keçirilə bilər. 2010-2013-cü illərdə başa çatan vergi dövründə yaranan zərər qeyri-bərabər hissələrlə növbəti 4 illik müddətə, 31 dekabr 2009-cu il tarixdən əvvəl yaranmış zərər isə növbəti 5 illik müddətə keçirilə bilər.

***Ödəmə mənbəyində tutulan vergilər:*** Gəlirlərin bəzi növləri toplanmır, lakin 19% dərəcə ilə son ödəmə mənbəyində vergiyə cəlb olunur. Aşağıdakı gəlir növlərindən mənbədə vergi tutulur:

- iştirak sertifikatları, müəyyən borc öhdəlikləri, vauçer və investisiya kuponlarından gəlir;
- bank depoziti və ümumilikdə cari hesablardan faizlər;
- özəl həyat və ya pensiya sığortaları ödəmələrinin ödənilmiş müavinətlərin məbləği qədər azaldılmış hissəsi;
- əlavə dövlət pensiya sığorta ödəmələri;
- 1 yanvar 2014-cü ildən sonra əldə olunmuş istiqraz və xəzinə veksellərindən gəlirlər (dövlət istiqraz və dövlət xəzinə veksellərindən gəlirlər istisna olmaqla);
- televiziya, radio, qəzet və jurnal materiallarının müəlliflərinin gəlirlərinin qanunvericiliyə uyğun olaraq ödənilmiş müavinətlər qədər azaldılmış hissəsi. Bununla yanaşı, həmin şəxslər ödəmə mənbəyində vergi tutan agentlə gəlirlərindən özünüqiymətləndirmə vasitəsilə vergi ödəyəcəklərinə dair yazılı razılığa gələ bilərlər.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Türk şair, yazıçı, rəssam, ssenarist və dramaturq, ictimai xadim, Beynəlxalq Sülh Mükafatı laureatı (1950); 2.Berlində inzibati mahal; 3.Daha lazım, ən vacib, çox gərəkli; 4.Məhəmməd peyğəmbərin vəfatından (632) sonra müsəlman icması və teokratik müsəlman dövlətinin dini və dünyəvi başçısı; 5.Azərbaycan türklərindən olan, XI-XII əsrlərdə indiki Azərbaycan ərazisində fəaliyyət göstərmiş və dünya şöhrəti qazanmış memar, Naxçıvan memarlıq məktəbinin banisi və bir çox əsərlərin müəllifinin adı; 6.Populyar estrada müğənnisi; 9.Hər hansı xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə, vərdiş; 13.Qadın adı; 15.Britaniyalı yazıçı. Dünyanın 65-dən çox dilinə tərcümə edilən «Harri Potter» seriyasının müəllifi; 16.Üzeyir Hacıbəyovun yarımçıq qalmış operası; 17.Dini inanclara görə ölümdən sonra gediləcəyinə inanılan sonsuz aləm; 18.Qədim yunan mifologiyasında məşhur təbib, təbabət tanrısı Asklepin və Epionun oğlu; 20.Avstriyanın cənub-şərqində şəhər; 21.Hindistanın şimal-qərbində şəhər. **Soldan sağa:** 1.1466-1554-ci illər arasında hökm sürmüş xanlıq; 5.Qohumluq dərəcəsi; 7.Hər hansı müqavilədə (xüsusilə beynəlxalq müqavilələrdə və mövcud şəraitin dəyişməsi ehtimalı böyük olan hallarla bağlı müqavilələrdə, məsələn, sığorta müqaviləsində) edilən müəyyən qeyd-şərtlər və düzəlişlər; 8.Açma, anlatma, izah, təfsir, bildirmə; 10.Hövsələ, səbir; həvəs, mərifət; 11.Elmi dinə tabe etməyə, elmi biliklərdən dini ehkamların müdafiəsində istifadəyə çalışan təlim; 12.Suyun qaz vəziyyəti; 14.Müəyyən məsafə üzrə idman yarışlarının başlanma anı; 19.Türk və altay xalq mədəniyyətində yeni ilin başlanğıcı; 21.Kəmərsiz geniş köynək şəklində kişi iş paltarı; 22.Azərbaycanın milli yeməyi; 23.Sığorta hadisəsi baş verdiyi zaman dəymiş zərərin sığorta ilə təmin olunmayan hissəsi; 24.Bir şeyin işıq şüalarının sınması nəticəsində hamar, parlaq səth, güzgü, su və s. üzərində görünən şəkli, surəti; 25.Almaniyada Aşağı Saksoniyanın cənubunda universitet şəhərciyi.




*Dünyanın 65-dən çox dilinə tərcümə edilən roman və onun əsasında çəkilən «Harri Potter» filmlər seriyası*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Məlhəm; 2.Qaragöl; 3.Elnur *(Məmmədli)*; 4.İyirmi; 5.Pampa; 6.Kalmık; 9.Arta; 13.Sara *(Qədimova)*; 15.Monofaq; 16.Qəssab; 17.Andrus; 18.Osiris; 20.Georq *(Om)*; 21.Venev. **Soldan sağa:** 1.Maqnetizm; 5.Pik; 7.Laringit; 8.Amal; 10. Əsgər; 11.Mərcanı; 12.İlisu; 14.Çalma; 19.Əsgəran; 21.Venns; 22.Svop; 23.Transfer; 24.Buq; 25.Las-Veqas.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Güləşçilərimizin Avropa çempionatında uğurlu çıxışı

Polşanın Valbrzix şəhərində güləş üzrə U-23 Avropa çempionatı başa çatıb. İlk dəfə keçirilən çempionatda 19-23 yaş arası idmançılar mübarizə aparıblar.



Çempionatın son günündə 66, 75, 85 və 130 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizə aparıblar. Turnirdə 85 kiloqram çəki dərəcəsində mübarizə aparan gənclər arasında dünya və Avropa çempionu İslam Abbasov yarışa Ukrayna və İsveç güləşçiləri üzərində ardıcıl qələbə ilə başlayıb. Almaniya təmsilçisi ilə gərgin keçən görüşdə uduzan güləşçimiz rəqibin finala yüksəlməsi ilə təsəllüverici görüşə qatılıb. Rusiya idmançısı ilə bərabər səviyyəli görüşdə qalib olan İ.Abbasov bürünc medal uğrunda həlledici görüşə çıxıb. Bolqarıstan idmançısı üzərində qələbə güləşçimizə bürünc medal qazandırıb.

Çempionatda yığmamız ümumilikdə 9 medal qazanıb. İki gümüş (Məhəmmədhacı Xatiyev - 86 kq) və Nurməhəmməd Hacıyev - 97 kq) və 2 bürünc medal (Məhəmməd Müslümov - 65 kq) və Əli Maqomedabirov - 125 kq) sərbəst güləşçilərin, 1 qızıl (Alyona Kolesnik - 55 kq) və 2 bürünc medal (Solmaz Həşimzadə - 53 kq və Elmira Qəmbərova - 63 kq) qadın güləşçilərin payına düşüb. Yunan-Roma güləşçilərimizdən Eldəniz Əzizli (59 kq) də çempionatı üçüncü pillədə başa vurub.

# Kriterium üzrə Açıq Bakı çempionatına start verilib

Azərbaycan Velosiped İdmanı Federasiyasının təqvim-planına əsasən, martın 29-da Veloparkda kriterium üzrə açıq Bakı çempionatının birinci mərhələsi keçirilib. Yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin müxtəlif yaş qrupları üzrə 80-dək idmançısı mübarizə aparıb.

Reqlamentə əsasən, 15 yaşadək idmançılar 10, 17 yaşadək velosipedçilər 20, gənclər, 23 yaşadək velosipedçilər, elit yaş kateqoriyasında çıxış edən idmançılar isə 30 kilometr məsafə qət ediblər. Yarışlarda müvafiq olaraq, David Proherkus, Mikayıl Səfərli və Elgün Əlizadə birinci yerləri tutublar.



# Xatirə turnirində üç medal

*İstanbulda Yaşar Doğunun xatirəsinə həsr olunan güləş üzrə sayca 43-cü beynəlxalq turnirdə sərbəst güləş üzrə Azərbaycan yığması üç medal qazanıb.*

Məşqçilər Nazim Əlicanov və David Kurtsiyanın rəhbərliyi ilə turnirdə mübarizə aparan güləşçilərimiz yarışların ilk günü 2 bürünc medal qazanıb. Ruslan Qasımov (57 kq) və Ağahüseyn Mustafayev (65 kq) fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb.

Turnirin ikinci günündə isə təmsilçimiz Aleksandr Qostiyev (86 kq) yığmamıza qızıl medal qazandırıb. Finaladək bütün rəqiblərindən üstün olan güləşçimiz həlledici görüşdə Polşa təmsilçisinə də heç bir şans verməyib.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Vaqif Zeynallı təmsil edib.

## Azərbaycan millisi Avropa kubokunun sahibidir

*İtaliyada gənclər arasında cüdo üzrə Avropa kuboku yarışlarında Azərbaycan millisi ümumi komanda hesabında birinci olub.*

Maraqlıdır ki, 60 kiloqram çəki dərəcəsində final qarşılaşmasında iki Azərbaycan idmançısı mübarizə aparıb. Gərgin keçən görüşdə millimizin üzvü Davud Məmmədov komanda yoldaşı Rüfət Tağızadəyə qalib gələrək turnirin qalibi adını qazanıb.

Digər cüdoçularımızdan Rüfət İsmayılov (81 kq), Firudin Dadaşov (90 kq), Cəlil Şükürov (100 kq) qızıl, Natiq Qurbanlı (55 kq), Elbrus Zamanov (60 kq) və Hidayət Heydərov (66 kq) bürünc medal qazanıblar.

İyirmi beş ölkədən 416 cüdoçunun mübarizə apardığı yarışda İtaliya millisi ikinci, Rumıniya kollektivi isə üçüncü pillədə qərarlaşıb.

## Prezident Kuboku Bakıda qaldı...

*Bakıda breyn-rinq intellektual oyunu üzrə Azərbaycan Respublikası Prezidenti Kuboku uğrunda yarışlar başa çatıb.*

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin təşkilatçılığı ilə keçirilən turnirdə 12 komanda - Azərbaycan millisi, Bakı yığması, ABŞ, Almaniya, Belarus, Estoniya, Gürcüstan, Moldova, Özbəkistan, Rusiya, Türkmənistan və Ukrayna təmsilçiləri mübarizə aparıblar.

Yarışın finalında Belarus komandası ilə qarşılaşan Azərbaycan yığması gərgin mübarizədə qalib gələrək kubok və qızıl medallara sahib olub.

Qeyd edək ki, yığma komandamızın heyətində Əziz Mürşüdlü, Günel Babayeva, Rüfət Abdulla, Zaur Ağayev, Cahangir Fərəcullayev və kapitan Tahir Musayev çıxış ediblər.

mozaika

## Reallıq eynəyi kosmosa çıxacaq

texnologiya

*ABŞ Kosmik Agentliyi (NASA) tərəfdaş şirkətlə - San-Fransiskonun «Osterhout Design Group» şirkəti ilə birlikdə reallıq eynəyi hazırlayır.*



Agentlik ərsəyə gətiriləcək qurğudan astronavtlara beynəlxalq kosmik stansiyada istifadə olunmasını, eləcə də gələcək skafandrların konstruksiyasında tətbiq edilməsini təklif etməyi planlaşdırır. Yeni eynək astronavtlara avadanlığın təmirində kömək edəcək, videokonfranslarda iştiraka imkan verəcək, Yerdə təlim vaxtını qısaldacaq və insanların əllərini kağız və elektron formatlarda olan təlimatları vərəqləməkdən azad edəcək ki, bu da fövqəladə halların yaranması zamanı böyük əhəmiyyət kəsb edir.

«Osterhout Design Group» şirkəti son altı ildə ABŞ hökumətinin və dövlət orqanlarının sifarişi ilə eynəklərin hazırlanması ilə məşğuldur. Şirkət sənaye sifarişçiləri üçün R-6S ağıllı eynəyin istehsalçısı kimi də məşhurdur. 3 giqabaytlıq operativ və 64 giqabaytlıq daxili yaddaşa malik olan bu eynək 2,7 QHs takt tezliyində işləyən dördnüvəli Qualcomm Snapdragon 805 prosessorunun bazasında işləyir.

Qurğu avtomatik fokuslama və videonu HD təsvir ölçüsündə çəkən kamera ilə təchiz edilib, Bluetooth 4.0 və Wireless Fidelity 802.ac standartlarında məlumatların ötürülməsini dəstəkləyir, akselerometr, hiroskop və maqnitometrə malikdir. R-6S Android 4.4 (Kit Kat) əməliyyat sisteminin idarəetməsi və 1300 milliamper/saat tutumlu litium-ion batareyası ilə işləyir.

NASA üçün yeni eynək daha mükəmməl texniki xüsusiyyətlərə malik olacaq və kosmosda istifadəyə uyğunlaşdırılacaq. Eynəyin nə vaxt istehsal ediləcəyi barədə isə hələlik məlumat verilməyib.

## Smartfon təhlükəsi



Smartfon və planşetlərin populyarlığının artması getdikcə daha çox kibercinayətkarı cəlb edir. Onların aktivliyi iki mindən çox mobil tətbiqin virusa yoluxması ilə nəticələnib. İnformasiya təhlükəsizliyi üçün bulud həlləri hazırlayan Veracode şirkətinin ekspertləri belə nəticəyə gəliblər. «iOS» və «Android» mobil platformaları ilə işləyən mobil qurğular üçün 400 min proqram araşdırılıb. Mütəxəssislər aydınlaşdırıblar ki, 14 min proqram istifadəçilər üçün müxtəlif təhlükə yaradır.

Təhlükəli proqram təminatının 35 faizi istifadəçi məlumatlarını kənar serverə göndərə bilər. Mobil proqramların 37 faizi şübhəli əməliyyatlar yerinə yetirir.

«Veracode» şirkətinin mütəxəssisləri aşkar ediblər ki, nəhəng şirkətlərin əməkdaşları 2400-dən çox təhlükəli mobil proqramdan istifadə edirlər. Bu göstərici ekspertlərin firma nümayəndələri arasında keçirdikləri sorğu nəticəsində də aşkara çıxarılmış təhlükəli məhsullara aiddir. Əslində isə biznesə təhlükə yaradan zərərli mobil proqramların real sayının daha çox olduğu bildirilib.

## Atom saatı

maraqlı

*Yapon alimləri son dərəcə dəqiq işləyən atom saatı hazırlayıblar. Bu saat 16 milyard il ərzində dəqiq vaxt göstərməyə qadirdir və həmin müddətdə onun cəmi bir saniyə xəta etmək ehtimalı var.*

Professor Hidetosi Katorinin rəhbərliyi ilə Tokio universiteti mütəxəssislərinin hazırladıqları qurğunun əsasına mənfi 180 dərəcəyə qədər soyudulmuş stronsium atomlarından ibarət matrisa daxildir. O, lazer şüalarından ibarət optik qəfəsə qoyulub. Vaxt intervalları isə bu kimyəvi elementin udduğu işıq tezliyi ilə ölçülür. Qurğu dəqiqliyinə görə hazırda istifadə olunan və «etalon» sayılan atom saatlarını min dəfədən də çox üstələyir.

H.Katori deyib ki, onlar tezliklə vaxt ölçüsünün beynəlxalq standartlarına yenidən baxılacağına və ixtiralarının elm aləmində fəxri yer tutacağına inanırlar.

araşdırma

## İnsan bədənindəki bakteriyalar...

*ABŞ-ın «İnsan mikrobiomu» hökumət layihəsi tərəfindən əldə edilmiş məlumata əsasən, 90 kiloqram çəkisi olan sağlam insanın bədənində yaşayan bütün bakteriyaların ümumi çəkisi 1 - 2,7 kiloqram təşkil edir.*



Ümumiyyətlə, insan bədənində 10 min növ mikrob (bakteriya, göbələk və s.) olur. ABŞ-ın Milli İnsan Genomu Araşdırma İnstitutunun direktoru Erik Qrin: «Alimlər hesab edirlər ki, insanın tək bir hüceyrəsində 10-a qədər bakteriya hüceyrəsi var, amma onlar o qədər kiçikdir ki, bir yerə yığılsalar belə, insan bədəninin ümumi çəkisinin cəmi 1-3 faizini təşkil edirlər».

Məlumdur ki, insanda təxminən 22 min gen mövcuddur. Layihənin hesablamalarına görə, bədənimiz mikrobların sayəsində daha 8 milyon gen daşıyır.

Həmin layihənin iştirakçısı olan Massaçusets Texnologiya İnstitutundan doktor Bryus Birren bildirib ki, bəzi bakteriyaların insanlarda mühüm funksiyaları var. Bəzilərinin genləri insan orqanizminin sağlamlığında və inkişafında əvəzedilməz rolu olan və bir çox işləri yerinə yetirən maddələr istehsal edirlər. Məsələn, həzm sistemindəki bakteriyalar zülal və yağların mənimsənilməsinə cavabdehdirlər. Onlar həm də bəzi xüsusi xeyirli əlavə birləşmələr, məsələn, alovlanmanın qarşısını alan kimyəvi maddələr istehsal edirlər.

Maraqlıdır ki, orqanizmimizin fərqli yerlərində müxtəlif növ bakteriyalar məskən salıb. Müxtəliflik ən çox dərimizin üzərində müşahidə olunur.

Bu bakteriyaların həyatımızda və sağlamlığımızda mühüm rolu var. Mürəkkəb quruluşlu mikroorqanizmlərin təsadüfən yaranması, orqanizmdə məskən salması, faydalı xüsusiyyətlərə malik olması və həyatımızda mühüm rol oynaması təsadüflərlə izah oluna bilməz. Görünür, heç bir şey boşuna yaranmır, yaranan hər varlığın konkret məqsədi olur!

## Devid Bekhemin gəlirləri

tam ciddi

Dünyanın ən məşhur futbolçularından biri, İngiltərə yığmasının sabiq kapitanı David Bekhem böyük futboldan kənarlaşsa da, gəlirlərini artırır. Onun imzalamağa hazırlaşdığı iki reklam müqaviləsi isə David Bekhemi dünyada karyerasını başa vurmuş idmançılar arasında gəlirinə görə ikinci insana çevirə bilər. 39 yaşlı David Bekhemin gəlirləri ötən il 67 milyon dollar təşkil etmişdi.



Onun gəlirlərinin əksəriyyəti reklam sazişləri ilə bağlıdır. Bekhemin «Diageo», «Adidas», «Sky Sports» və «Samsung»la reklam müqavilələri var.

Qeyd edək ki, idman karyerası ilə vidalaşmış idmançılar arasında gəlirlərin həcmi baxımından dünya lideri amerikalı basketbolçu Maykl Cordandır. 52 yaşlı Cordanın gəlirləri ötən il 78,4 milyon dollar olub.

Bu il Devid Bekhemin gəlirləri daha da artacaq: artıq o, «Haig Club» viskisi, H&M alt paltarları, «Coty» parfümeriya brendi ilə müqavilələr imzalayıb. «Coty» ilə anlaşma «David Beckham» odekolonunun istehsalını nəzərdə tutur.

**Müdriklər deyib ki...**

***«Bir saatın qədrini bilməyən həyatın qiymətini tam başa düşə bilməz».***

*Çarlz Darvin (1809-1882)*

